## Günün sözü

### Prezident İlham Əliyev:

**Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa, nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı.**



Səhifə ⇨ 5

### Heydər Əliyev və Azərbaycanda Dördüncü sənaye inqilabı

### Təcili Xankəndiyə...



Səhifə ⇨ 7


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 70 (30186) 6 aprel 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana dövlət səfəri

## *Düşənbənin Beynəlxalq Aeroportunda qarşılanma*



**Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasına dövlət səfərinə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Düşənbə şəhərinin Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Tacikistanın Baş naziri Koxir Rasulzada və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

## Azərbaycan Prezidentinin Düşənbədə rəsmi qarşılanma mərasimi olub

**Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistanın paytaxtı Düşənbədə Millət Sarayında rəsmi qarşılanma mərasimi olub.**

Azərbaycanın və Tacikistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

(ardı 2-ci səhifədə)

## Prezident İlham Əliyev İsmoili Somoni abidəsini ziyarət edib





**Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Düşənbənin "Dusti" meydanındakı "Tacikistanın milli həmrəyliyi və dirçəlişi" xatirə kompleksində İsmoili Somoni abidəsini ziyarət edib.**

Dövlətimizin başçısının şərəfinə burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

**AZƏRTAC**

### Simonyanın hayları ayağa qaldıran tərbiyəsizliyi

Səhifə ⇨ 7





Səhifə ⇨ 8

### Rusiya–İran yaxınlaşması: qlobal risklər və mənafelər

### İranın "parlament fətvası": bəyanat yoxsa, anti-Azərbaycan isteriyası?



Səhifə ⇨ 6



Səhifə ⇨ 9

### "Yeni əsrin müqaviləsi" üzrə hazırlıq işləri yekunlaşır

# Türk dövlətlərinin sadələşdirilmiş gömrük dəhlizi yaradılır

Səhifə ⇨ 9

### Türkiyə meqalayihələrin icrasını davam etdirir

Səhifə ⇨ 10





Səhifə ⇨ 10

### Ukraynada döyüşlər səngimir

### Tramp məhkəmədə özünü təqsirli bilməyib



Səhifə ⇨ 10



Səhifə ⇨ 11

### Fəal hərəkət uzun ömür qaynağıdır

# Azərbaycan Prezidentinin Düşənbədə rəsmi qarşılanma mərasimi olub





(əvvəli 1-ci səhifədə)

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Tacikistanın Dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev əsgərləri salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Tacikistanın nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Emoməli Rəhmona təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Azərbaycan və Tacikistan prezidentləri birgə foto çəkdirdilər.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistan Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü



**Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.**

**Görüşdə çıxış edən Prezident Emoməli Rəhmon dedi:**

– Hörmətli İlham Heydər oğlu, Tacikistana xoş gəlmisiniz. Xalqlarımız arasında qarşılıqlı münasibətlərin qədim tarixi və xoş ənənələri var. Sevindirici haldır ki, bu gün bizim dövlətlərarası münasibətlər bir çox istiqamətlər üzrə inkişaf edir. Biz bu münasibətlərin bütün formatlarda daha da möhkəmlənməsinə böyük əhəmiyyət veririk.

Bu gün Sizinlə ölkələrimizin qarşılıqlı əlaqələrinin vəziyyətini və perspektivlərini, habelə beynəlxalq və regional məsələləri müzakirə etməyə hazıram.

Bir daha xoş gəlmisiniz. Ölkəmizdə vaxtınızın xoş keçməsini arzu edirəm.

***

**Prezident İlham Əliyev dedi:**

– Sağ olun, Emoməli Şərifoviç. Əvvələn, dəvətə görə təşəkkür edirəm. Qardaş, dost Tacikistana yenidən gəlməyimə çox şadam.

Siz qeyd etdiyiniz kimi ölkələrimiz arasında münasibətlərin yaxşı tarixi və əminəm ki, çox yaxşı gələcəyi var. Biz həm beynəlxalq məkanlarda, beynəlxalq strukturlar çərçivəsində və əlbəttə, ikitərəfli formatda çox istiqamətlər üzrə əməkdaşlıq edirik. Əməkdaşlığın, o cümlədən, ticari-iqtisadi, sənaye kooperasiyası, nəqliyyat sahələrində dərinləşməsi üçün çox yaxşı perspektivlər var. Əlbəttə, biz bunu ətraflı müzakirə edəcəyik. Nümayəndə heyətlərinin üzvləri də öz aralarında fəal diskussiyalar aparacaqlar. Əminəm ki, səfərin nəticələri uğurlu olacaq. Biz birgə fəaliyyətimizin sonrakı proqramını müəyyən edəcəyik.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

**Prezident Emoməli Rəhmon:** Çox sağ olun.

**AZƏRTAC**

## Azərbaycan və Tacikistan prezidentlərinin geniş tərkibdə görüşü olub



**Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü olub.**

**Dövlətimizin başçısını salamlayan Prezident Emoməli Rəhmon dedi:**

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli azərbaycanlı dostlar.

Sizi Tacikistanda böyük məmnuniyyətlə salamlayıram. Hörmətli İlham Heydər oğlu, Sizin dövlət səfərinizə ürəkdən şadıq. Bu səfəri Tacikistan–Azərbaycan münasibətlərinin aktual məsələlərini ətraflı müzakirə etmək və yeni artım nöqtələrini müəyyənləşdirmək üçün yaxşı fürsət hesab edirik.

Tacikistan və Azərbaycan xalqlarını qədim tarixi köklərə malik olan ənənəvi dostluq telləri bağlayır. Sevindirici haldır ki, bu gün ölkələrimizin dövlətlərarası qarşılıqlı əlaqələri geniş spektr üzrə ardıcıl surətdə inkişaf edir. Bu qarşılıqlı fəaliyyət siyasi, ticari-iqtisadi, elmi-texniki, mədəni-humanitar və bir sıra başqa sahələri əhatə edir. Biz Azərbaycan Respublikası ilə həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın hərtərəfli genişlənməsinə daim diqqət yetiririk. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar münasibətlərimizin gündəliyini keyfiyyətcə yeni məzmunla zənginləşdirəcək. Bir daha xoş gəlmisiniz. Sözü Sizə verirəm, hörmətli İlham Heydər oğlu. Buyurun.

***

**Prezident İlham Əliyev dedi:**

– Hörmətli Emoməli Şərifoviç, dəvətə və qonaqpərvərliyə görə sağ olun. Sizin gözəl ölkənizə yenidən səfər etməyimə və Sizinlə çox fəal, səmimi siyasi dialoqumuzu davam etdirməyə çox şadam.

Siz qeyd etdiyiniz kimi, ölkələrimizin xalqları uzun müddət ərzində fəal qarşılıqlı əlaqə saxlayırlar. Çox sevindirici haldır ki, 30 ildən artıq inkişaf edən dövlətlərarası münasibətlərimiz dövründə biz çox möhkəm təməl yaratmağa və bu təməl üzərində dostluğumuzun möhkəm binasını qurmağa nail olmuşuq.

Siz qeyd etdiyiniz kimi, biz həm çoxtərəfli formatda, həm də xüsusilə ikitərəfli formatda fəal qarşılıqlı əlaqə saxlayırıq. Həmişə mehriban dostlar kimi çox səmimi əməkdaşlıq edirik. Əlbəttə, dövlət səfəri çərçivəsində yeni qərarlar qəbul ediləcək, çoxlu sənədlər imzalanacaq, onlar münasibətlərimizin gələcək inkişafını müəyyən edəcək. Biz gündəlikdəki geniş məsələləri – həm ticari-iqtisadi sahədə, nəqliyyat-logistika sahəsində, həm də investisiya siyasəti sahəsində çox böyük perspektivləri ətraflı müzakirə edəcəyik.

Fürsətdən istifadə edib Sizi və bütün qardaş Tacikistan xalqını sosial-iqtisadi inkişafda böyük nailiyyətləriniz və Düşənbə şəhərinin bu cür coşqun inkişafı münasibətilə təbrik etmək istərdim. Mən Tacikistanda dəfələrlə olmuşam. Həm ölkənizin, həm də təbii ki, paytaxtınızın belə müsbət inkişaf dinamikasını şəxsən yəqin etmək imkanım olub. Bu münasibətlə Sizi təbrik etmək istərdim.

Qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm və gələcəkdə fəal işləmək əzmindəyik. Sağ olun.

**AZƏRTAC**

# Azərbaycan–Tacikistan sənədləri imzalanıb

**Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.**



"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistan Respublikasının Xarici İşlər naziri Sirojiddin Muhriddin imzaladılar.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Tacikistan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Tacikistan Respublikasının Daxili İşlər naziri Ramazon Rahimzoda imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında keçirilən mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Protokol"u Azərbaycan Respublikasının Tacikistan Respublikasındakı səfiri Əlimirzamin Əskərov və Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidmətinin rəisi Xurşed Karimzoda imzaladılar.

"Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə Tacikistan Milli Bankı yanında Maliyyə Monitorinqi Departamenti arasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, əlaqəli əsas (predikativ) cinayətlər və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı maliyyə kəşfiyyat məlumatlarının mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistan Milli Bankının sədri Hokim Xoliqzoda imzaladılar.

"2025-ci ilədək Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Tədbirlər Planı"nı Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistan Respublikasının iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Tacikistan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında 2023-2024-cü illər üzrə kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinə dair Yol Xəritəsi"ni Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Tacikistan Respublikasının Kənd Təsərrüfatı naziri Kurbon Hakimzoda imzaladılar.

(ardı 3-cü səhifədə)

# Azərbaycan–Tacikistan sənədləri imzalanıb






**(əvvəli 2-ci səhifədə)**

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Tacikistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2023-2024-cü illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Tacikistan Respublikasının Xarici İşlər naziri Sirojiddin Muhriddin imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Tacikistan Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində 2023–2024-cü illər üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli və Tacikistan Respublikasının Mədəniyyət naziri Zulfiya Davlatzoda imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsi arasında investisiyalar, startapların təşviqi və sahibkarlıq sahəsində Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri Sadyi Kodirzoda imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Tacikistan Respublikasının Hökuməti yanında Turizmin İnkişafı üzrə Komitə arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Tacikistan Respublikasındakı səfiri Əlimirzamin Əskərov və Tacikistan Respublikasının Hökuməti yanında Turizmin İnkişafı üzrə Komitənin sədri Kamoliddin Muminzod imzaladılar.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı və Tacikistan Milli Bankı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Mərkəzi Bankının sədri Taleh Kazımov və Tacikistan Milli Bankının sədri Hokim Xoliqzoda imzaladılar.

"Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsi yanında "Tacinvest" Dövlət Unitar Müəssisəsi arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarə Olunması üzrə Dövlət Komitəsinin sədri Sadyi Kodirzoda imzaladılar.

"Azərbaycan Respublikasının Şuşa şəhəri ilə Tacikistan Respublikasının İsfara şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Protokol"u Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov və Tacikistan Respublikasının İsfara şəhərinin rəhbəri Baxovaddin Baxodurzoda imzaladılar.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Tacikistan Respublikasının Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Tacikistan Respublikasının Ticarət və Sənaye Palatasının sədri Camşed Cumaxonzoda imzaladılar.

**AZƏRTAC**

# Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



**Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Tacikistan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident Emoməli Rəhmonun bəyanatı

– Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi Tacikistan Respublikasına dövlət səfəri münasibətilə bir daha səmimi-qəlbdən salamlamaq istərdim.

Əvvəlcə qeyd etmək istərdim ki, diplomatik münasibətlərin otuz ili ərzində Tacikistan və Azərbaycan səmərəli qarşılıqlı fəaliyyət mexanizmləri qura və bu gün qardaş xalqlarımızın rifahına xidmət edən sanballı nəticələr əldə edə biliblər. Buna çox cəhətdən əsası Azərbaycan xalqının görkəmli oğlu və mənim dostum, böyük yoldaşım Heydər Əliyev tərəfindən qoyulmuş sıx, qarşılıqlı etimada əsaslanan əlaqələr şərait yaradır. Gələn ay Heydər Əliyevin 100 illiyini Tacikistanda da qeyd edəcəyik.

Mən qardaş Azərbaycanın bu böyük dövlət xadimi ilə ünsiyyətimizi həmişə səmimiyyətlə xatırlayıram. Heydər Əliyev ölkə üçün ən taleyüklü vaxtda həqiqətən öz şanlı xalqının milli lideri oldu və ölkəni sabitlik, inkişaf yoluna çıxardı.

Hörmətli İlham Heydər oğlunun səfəri həm bu əlaqələrin, həm də xalqlarımızın çoxəsrlik qarşılıqlı ünsiyyət tellərinin məntiqi davamıdır. Bu əlaqələrin əsasını hər bir tacikin evində dərin hörmət bəslənən, misli-bərabəri olmayan Nizami Gəncəvi qoyub. Buna görə də bizim danışıqlar, həmişəki kimi, qurucu xarakter daşıyıb, ikitərəfli qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə və dərinləşdirilməsinə yönəlib. Danışıqların gedişində biz ikitərəfli münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini ətraflı nəzərdən keçirdik, bizim üçün aktual olan bütün məsələlərə dair fikir mübadiləsi apardıq. Bu gün imzalanmış ikitərəfli sənədlər əlaqələrimizin hüquqi bazasının möhkəmləndirilməsinə və tamamlanmasına yönəlib.

Biz çoxşaxəli əlaqələrimizin kompleksinin tərkib hissələri kimi parlamentlərarası əməkdaşlığın fasiləsiz xarakterini qeyd etdik. İki ölkənin parlamentlərinin rəhbərlərinin qarşılıqlı səfərləri nəticəsində bu əməkdaşlıq yeni məzmun kəsb edib.

Ticari-iqtisadi sahədə qarşılıqlı əlaqələri ətraflı müzakirə etdik. Razılaşdıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi tərəflərin malik olduğu potensiala uyğun deyil. Bununla əlaqədar əmtəə dövriyyəsinin artırılmasına dair təxirəsalınmaz tədbirlər görülməsi barədə razılığa gəldik.

Danışıqlar çərçivəsində biz investisiyalar, sənaye kooperasiyası, kənd təsərrüfatı, nəqliyyat sahələrində və yanacaq-energetika kompleksində qarşılıqlı fəaliyyətin istiqamətləri üzərində ayrıca dayandıq.

Sənaye kooperasiyası sahəsində yüngül, kimya və dağ-mədən sənayesi, tikinti materiallarının istehsalı, alüminiumun, pambıq lifinin, qiymətli və yarımqiymətli daşların və metalların emalı sahələrində birgə layihələrin həyata keçirilməsi üçün böyük imkanlar olduğunu qeyd etdik.

Energetika sektorunda Tacikistanın neft-qaz yataqlarının işlənilməsində Azərbaycan şirkətlərinin iştirakında maraqlı olduğumuzu təsdiq etdik.

Biz Azərbaycanın əlverişli tranzit imkanlarından fəal istifadə olunmasını davam etdirəcək, Tacikistanın dövlət və kommersiya strukturlarının yükdaşıma həcmlərini artıracağıq.

Danışıqlarda münasibətlərimizin humanitar istiqaməti mühüm yer tutdu. Təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı genişləndirməyə qarşılıqlı hazır olduğumuzu təsdiq etdik.

Regional və beynəlxalq xarakterli aktual məsələlərin bütün məcmusuna dair fikir mübadiləsi apardıq. Beynəlxalq və regional təşkilatlar məkanında bundan sonra da qarşılıqlı fəaliyyətin vacib olmasını qeyd etdik.

Çoxtərəfli məkanlarda, ilk növbədə, BMT-də bir-birimizin namizədliyimizi və təşəbbüslərimizi qarşılıqlı dəstəkləmək praktikasını davam etdirmək barədə razılığa gəldik.

Biz suya və iqlimə dair Tacikistanın irəli sürdüyü qlobal təşəbbüslərin dəstəklənməsinə görə Azərbaycan tərəfə minnətdarlığımızı bildirdik.

Danışıqlarda təhlükəsizlik məsələləri diqqət mərkəzində oldu. Biz beynəlxalq terrorizmə, ekstremizmə, narkotiklərin və silahların qanunsuz dövriyyəsinə, kibercinayətkarlığa və transmilli mütəşəkkil cinayətkarlığın digər formalarına qarşı mübarizədə əməkdaşlığın möhkəmləndirilməsinə tərəfdar olduğumuzu bildirdik. Beynəlxalq mövzuları və bizim regionlarda vəziyyəti ətraflı müzakirə etdik.

Bugünkü danışıqların yekunları ölkələrimiz arasında münasibətlərin inkişafına böyük nikbinliklə və xoş ümidlərlə baxmağımıza imkan verir.

İndi sözü böyük məmnuniyyətlə əziz qonağımız, hörmətli İlham Heydər oğlu Əliyevə verirəm. Buyurun.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli Emoməli Şərifoviç.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, qardaş Tacikistana dövlət səfərinə dəvətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirmək istərdim. Mən Tacikistana ilk dəfə gəlmirəm. Bu, mənim üçüncü rəsmi səfərimdir. Mən Tacikistana beynəlxalq tədbirlərdə iştirak etmək üçün də gəlmişəm.

Emoməli Şərifoviç, ilk növbədə, Sizi və bütün qardaş Tacikistan xalqını Tacikistanın sosial-iqtisadi inkişafında böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Onu da qeyd etmək istərdim ki, paytaxtınız, ilbəil gözəlləşən Düşənbə şəhərinin coşqun inkişafını görəndə çox sevindim. Mən axırıncı dəfə Düşənbəyə təqribən beş il bundan əvvəl gəlmişdim və əminliklə deyə bilərəm ki, bu qısa müddət ərzində mühüm müsbət dəyişikliklər baş verib. Həm gördüklərim, həm də Tacikistan Prezidentinin gələcək planları barədə mənə dedikləri ona dəlalət edir ki, Tacikistanın paytaxtı daha gözəl, qonaqlar və sakinlər üçün daha rahat olacaq.

Atam Heydər Əliyevin xatirəsinə səmimi münasibətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirmək istərdim. O, Emoməli Şərifoviç Rəhmon ilə birlikdə ölkələrimiz arasında dövlətlərarası münasibətlərin formalaşmasının təşəbbüskarı olub və mahiyyət etibarilə onlar bu münasibətlərin əsasını qoyublar.

Bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərinin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərindəki fəaliyyətin nəticəsidir. O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, – hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular. Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı.

Buna görə düşünürəm ki, xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar. Tacikistan və Azərbaycan isə keçmiş sovet respublikaları arasında müstəqillik yoluna ən pis və ən ağır şəraitdə qədəm qoyublar. Təbii ki, o dövrü yaxşı bilən adamlar bunu təsdiq edə bilərlər. Lakin həm Azərbaycanda, həm də Tacikistanda gənc nəsil də bunu bilməlidir. Bizim bugünkü uğurlu inkişafımız, necə deyərlər, göydən düşməyib, bunun arxasında məhz böyük liderlərin, xalqlarımızın liderlərinin əməyi durur. Onlar özləri üçün, öz həyatları üçün riskə gedərək dinc və uğurlu inkişafı təmin etmək naminə əllərindən gələni ediblər.

Bu barədə burada – Tacikistanda, Heydər Əliyevin xatirəsi ehtiramla yad edilən qardaş ölkədə danışmaq mənə xüsusilə xoşdur. Emoməli Şərifoviçin dediyi kimi, gələn ay biz Azərbaycan dövlətçiliyinin banisinin anadan olmasının 100 illiyini qeyd edəcəyik. Mən tacik qardaşlarımıza təşəkkür edirəm ki, Heydər Əliyevin xatirəsi Tacikistanda da qeyd ediləcək.

Emoməli Şərifoviç danışıqların bütün mövzularını işıqlandırdı. Hesab edirəm ki, bu gün biz çox səmərəli danışıqlar apardıq, həm təkbətək, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşlərdə gələcək qarşılıqlı fəaliyyətimizin konkret məsələlərini müzakirə etdik. Emoməli Şərifoviçin qeyd etdiyi bütün istiqamətlər üzrə necə irəliləmək barədə dəqiq təsəvvürümüz var. Nəqliyyat-logistika sahəsinə, sənaye kooperasiyasına, investisiya layihələri ilə bağlı məsələlərə dair konkret tapşırıqlar verilib. Biz Tacikistanda investisiya layihələrini ciddi nəzərdən keçirməyə hazırıq. Ona görə ki, əvvələn, Tacikistan bizə yaxın ölkədir, ikincisi, sabitlik hökm sürən ölkədir. İnvestisiyalar yalnız sabitlik və yaxşı investisiya şəraiti olan ölkələrə yönəldilir. Çoxsaylı xarici şirkətlər tərəfindən Tacikistanda fəal sərmayə qoyulması ona dəlalət edir ki, investisiyalar, o cümlədən xarici investisiyalar dövlət tərəfindən qorunur.

Mən əsla şübhə etmirəm ki, səfərin nəticələrinə əsasən ən yaxın vaxtda konkret addımlar atılacaq. Biz hökumətlərarası komissiyanın növbəti iclasını bu il Tacikistanda keçirmək barədə razılığa gəldik. Əminəm ki, hökumətlərarası komissiyanın iclasına qədər bizim məhz nəqliyyat-logistika qarşılıqlı əlaqələri, investisiya siyasəti, sənaye kooperasiyası məsələlərinə dair nümayəndə heyətlərinin üzvlərinə verdiyimiz bütün tapşırıqlar yerinə yetiriləcək. Əminəm ki, nəticələr bizi sevindirəcək.

Məhz mədəni sahədə qarşılıqlı əlaqələrimizin möhkəm təməlini xüsusi qeyd etmək istərdim. Xalqlarımız əsrlər boyu dostluq, həmrəylik şəraitində yaşayıb, dostluq ediblər. Təsadüfi deyil ki, Azərbaycanda tacik mədəniyyətini, Tacikistanda Azərbaycan mədəniyyətini çox yüksək qiymətləndirirlər. Demək istərdim ki, tacik xalqının görkəmli oğlu Rudəkinin abidəsinin azərbaycanlı heykəltaraş Fuad Əbdürrəhmanov tərəfindən yaradılması heç də təsadüfi deyil. Bu abidə 1960-cı illərdə Düşənbədə qoyulub.

Digər məşhur Azərbaycan heykəltaraşı Ömər Eldarov Sədrəddin Ayninin və İbn Sinanın abidələrini yaradıb. Yəni, bunlar çox şeyə dəlalət edir. Tacik xalqının görkəmli nümayəndələrinin abidələrinin yaradılmasının Azərbaycan nümayəndələrinə etibar edilməsi böyük etimad, dostluq, qardaşlıq deməkdir. Biz onu da bilirik ki, Tacikistanda dahi Azərbaycan şairi, doğma Gəncədə doğulmuş, yaşamış və orada dünyasını dəyişmiş Nizami Gəncəvini sevirlər və ona ehtiram bəsləyirlər. Bu mədəni bünövrə bu gün bütün istiqamətlər üzrə fəal qarşılıqlı əlaqələr üçün zəmin yaradır. Əminəm ki, biz bu gün təhsil sahəsində də, başqa sahələrdə də qəbul etdiyimiz bütün qərarları yerinə yetirəcəyik.

Onu da demək istərdim, biz məmnuniyyətlə qeyd etdik ki, Tacikistandan olan 50-yə yaxın kursant bu gün Azərbaycanın Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin tədris müəssisələrində təhsil alır. Biz tacik tələbələrin sayının artırılmasına şərait yaratmağı qərara aldıq. Əlbəttə, əminəm ki, azərbaycanlı tələbələr də böyük sevinc və istəklə burada, Tacikistanda təhsil ala bilərlər.

Mən əziz dostum, qardaşım Emoməli Şərifoviç Rəhmona qonaqpərvərliyə, əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Emoməli Şərifoviç, fürsətdən istifadə edib Sizi Azərbaycana səfərə dəvət etmək istərdim.

Emoməli Şərifoviç Azərbaycana üç rəsmi səfər edib, mən də Tacikistana üç rəsmi səfər etmişəm. Bu, bizim münasibətlərin dinamikasına dəlalət edir. Fikrimcə, gələcəkdə bu səfərlər daha intensiv olacaq, birlikdə işləyəcək, dostluq edəcək və birgə gələcəyimizi quracağıq. Sağ olun.

**Prezident Emoməli Rəhmon:** Sağ olun, İlham Heydər oğlu. Məni Azərbaycan Respublikasına səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. İlk münasib imkan yaranan kimi Sizin lütfkar dəvətinizdən mütləq istifadə edəcəyəm.

**AZƏRTAC**

# Prezident İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib

Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon tərəfindən rəsmi ziyafət verilib.

**AZƏRTAC**

# Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha

**Əlahəzrət!**

Azərbaycan Respublikası ilə Malayziya arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, dost xalqınıza ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Malayziya arasında dostluq münasibətlərinə böyük əhəmiyyət veririk. Ötən otuz illik dövr ərzində dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir. Ölkələrimizin beynəlxalq təsisatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığını vurğulamaq istərdim.

Bu gün ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün yaxşı imkanlar vardır. İnanıram ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə dostluq münasibətlərimizi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Malayziya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 aprel 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

1993-cü il aprelin 5-də Malayziya ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə Kraliça ilə birlikdə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Son 30 il ərzində Malayziya ilə Azərbaycan arasında geniş əməkdaşlıq sahələrində qarşılıqlı hörmət və maraq doğuran məsələlərdə ortaq dəyərlər prinsipinə əsaslanan sıx səmimi münasibətlər mövcuddur.

Biz ürəkdən inanırıq ki, dövlətlərimiz arasında əməkdaşlıq gələcək illərdə də genişlənərək, ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərin yeni sahələrini əhatə edəcək.

Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və rifah, həmçinin xalqlarımıza davamlı sülh, tərəqqi və firavanlıq arzulayırıq.

**Hörmətlə,**

***Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain BİLLAH***

**Malayziyanın XVI Ali Başçısı**

# "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2667 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2667 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 75; 2009, № 1, maddə 17, № 9, maddə 734; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2020, № 3, maddə 260; 2022, № 5, maddə 531) 1-ci hissəsində "Kənd Təsərrüfatı" sözləri "ekologiya və təbii sərvətlər" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 aprel 2023-cü il**

# Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir

**Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva Beynəlxalq Enerji Agentliyinin (İAE) icraçı direktoru Fatih Birol ilə görüşüb.**



Beynəlxalq Enerji Agentliyinin Parisdəki mənzil-qərargahında keçirilmiş görüşdə bugünkü təlatümlü dünyada enerji səmərəliliyinin əhəmiyyətindən, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən söz açılıb.

Səfir Leyla Abdullayeva Azərbaycanın enerji mənbələri, xüsusilə də Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji zonasının yaradılması ilə bağlı Sərəncamı, neft-qaz sahəsinin genişləndirilməsi istiqamətində görülən işlər, həmçinin yaşıl enerji sahəsində layihələrin inkişafına yönəlmiş yeni enerji strategiyası, ölkəmizin enerji siyasəti haqqında ətraflı məlumat verib. Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrinə toxunan diplomat ölkəmizin NATO çərçivəsində fəaliyyətindən, Qoşulmama Hərəkatına sədrliyindən danışıb.

İAE-nin icraçı direktoru Fatih Birol rəhbərlik etdiyi təşkilat və onun məqsədləri barədə məlumat verib. O, Azərbaycanın zəngin enerji resurslarına malik ölkə olduğunu bildirərək, enerji böhranı dövründə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verdiyini qeyd edib, ölkəmizin çətin vəziyyətdə olan dövlətlərə yardım göstərdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, İAE Dünya Enerji Proqnozları (WEO), Enerji Texnologiyaları Perspektivlərinə dair illik hesabatları, eləcə də neft, təbii qaz, kömür, son illərdə isə bərpaolunan enerji və enerji səmərəliliyinə dair ortamüddətli perspektivlərə dair hesabatları ilə dünyada tanınır.

***Şəhla AĞALAROVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***
**Paris**

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Ali Məhkəmənin sədri İnam Kərimovu kollektivə təqdim edib

**Aprelin 5-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Ali Məhkəmənin sədri İnam Kərimovu kollektivə təqdim edib.**



AZƏRTAC xəbər verir ki, Samir Nuriyev təqdimat mərasimində çıxış edərək müstəqil Azərbaycanın müasir məhkəmə sisteminin inkişafının ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Diqqətə çatdırıb ki, ulu öndərin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hakimiyyətinin hakimiyyətlər bölgüsündə yerini, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsip və şərtlərini müəyyən edib.

Administrasiyanın rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev hüquqi dövlət quruculuğu prosesini uğurla davam etdirərək məhkəmə-hüquq sistemində islahatları daha da dərinləşdirib. Qanunvericilik bazası təkmilləşdirilib, yeni regional məhkəmələr, o cümlədən, kommersiya məhkəmələri və inzibati məhkəmələr təsis edilib, hakimlərin sayı artırılıb, onların sosial müdafiəsi gücləndirilib, məhkəmələrin maddi-texniki bazası müasirləşdirilib, bütün bu kompleks tədbirlər məhkəmələrin müstəqilliyini daha da möhkəmləndirib.

Samir Nuriyev Ali Məhkəmənin ədalət mühakiməsi institutlarının inkişaf etdirilməsi sahəsində fəaliyyətini bundan sonra daha da gücləndirəcəyinə, hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün bütün zəruri tədbirləri həyata keçirəcəyinə və hüququn aliliyinin təmin edilməsi istiqamətində öz səylərini əsirgəməyəcəyinə inandığını bildirib, bu işdə yeni təyin olunmuş sədrə və kollektivə uğurlar arzulayıb.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 96** **Bakı şəhəri, 4 aprel 2023-cü il**

***"Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə"də, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu"nda və "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 oktyabr tarixli 1868 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1001, № 10, maddə 1295; 2016, № 2 (II kitab), maddə 355, № 9, maddə 1585; 2018, № 9, maddə 1943, № 10, maddə 2170, № 11, maddə 2462; 2019, № 3, maddə 518, № 8, maddə 1460; 2020, № 4, maddə 477, № 12 (V kitab), maddə 1613; 2021, № 11, maddə 1259; 2022, № 2, maddələr 172, 188, № 3, maddə 268) ilə təsdiq edilmiş "İstintaq təcridxanalarının daxili intizam Qaydaları"nın 1.7-ci bəndindən "(Naxçıvan Muxtar Respublikasının ərazisində - Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi)" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 97** **Bakı şəhəri, 4 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 21 oktyabr tarixli 337 nömrəli və "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 22 oktyabr tarixli 339 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 oktyabr tarixli 337 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1408; 2021, № 5, maddə 516) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası"na aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. Müqavilənin qeydiyyata alınması üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 oktyabr tarixli 339 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1558; 2016, № 5, maddə 955; 2017, № 1, maddə 126, № 7, maddə 1498) ilə təsdiq edilmiş "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"na aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. Qrant vermək hüququnun əldə edilməsi üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bob Bləkmən: Birləşmiş Krallıq Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verir

**Aprelin 5-də ölkəmizdə səfərdə olan Böyük Britaniya İcmalar Palatasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti ilə Milli Məclisin Böyük Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinin görüşü olub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycan–Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov ölkələrimiz arasında uğurla inkişaf edən strateji əməkdaşlıqdan, müxtəlif sahələrdə, xüsusən də iqtisadiyyat və enerji sahələrində qurulan uğurlu münasibətlərdən söz açıb. O, Azərbaycanın Cənubi Qafqazda Birləşmiş Krallığın ən böyük tərəfdaşı olduğunu bildirib. Soltan Məmmədov Azərbaycanla Birləşmiş Krallıq arasında əlaqələrin inkişafında parlamentlərin müsbət rol oynadığını qeyd edib, hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulayıb.

Qonaqlara, həmçinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində ölkəmizin irəli sürdüyü təşəbbüslər və atdığı addımlar, işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi geniş quruculuq layihələri barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, Azərbaycan Ermənistana beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişi imzalamağı təklif edib.

Azərbaycan–Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri bildirib ki, Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri və ekologiya fəalları Xankəndi–Şuşa–Laçın yolunda 100 gündən artıqdır ki, etiraz aksiyası keçirirlər. Laçın yolundakı etiraz aksiyasının məqsədi talan edilmiş təbii sərvətlərimizin qanunsuz daşınmasının qarşısının alınmasıdır. Humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolunda aksiyaçılar tərəfindən mülki təyinatlı nəqliyyat vasitələrinin hərəkətinə heç bir maneə törədilmir, mülki şəxslər və mülki yüklər yolda maneəsiz şəkildə hərəkət edirlər.

Bob Bləkmən ölkələrimiz arasında dostluq münasibətlərinin tarixindən söz açıb, Birləşmiş Krallığın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edib. O, ölkəsinin Cənubi Qafqazda sülhün və əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirərək, bu istiqamətdə dəstək verməyə hazır olduqlarını deyib.

Azərbaycan–Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Nigar Arpadarai, Tural Gəncəliyev, Razi Nurullayev, Tahir Mirkişili, Mahir Abbaszadə, Kamal Cəfərov, Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Elin Süleymanov ölkələrimiz arasında iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişafı, o cümlədən, müxtəlif platformalarda əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

**Qəzənfər QASIMOV, "Xalq qəzeti"**

# Heydər Əliyev və Azərbaycanda Dördüncü sənaye inqilabı



**Məlum olduğu kimi, ilk sənaye inqilabı 1760-1840-cı illərdə baş verdi. Buna buxar maşınının ixtira edilməsi, dəmir yollarının çəkilməsi səbəb olmuşdur. İstehsal mexaniki hala gəldi. İkinci sənaye inqilabı XIX əsrin sonlarından XX əsrin əvvəllərinədək davam etmişdir. Elektrik və konveyerin ixtirası kütləvi istehsala səbəb oldu. Üçüncü sənaye inqilabı 1960-cı illərdə başlamışdır. Yarımkeçiricilərin, elektron kompüterlərin (1960-cı illər), fərdi kompüterlərin (1970-1980-ci illər) və Ümumdünya Şəbəkəsinin (1990-cı illər) yaradılması katalizatora çevrildiyi üçün ona kompüter və ya rəqəmsal əsri deyilir.**

Bu gün dünya iqtisadiyyatında önəmli yer tutan ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Kanada və Yaponiya məhz sənayecə inkişaf etmiş ölkələrdir. İnkişaf etməkdə olan ölkələr kateqoriyasına daxil olmaq üçün də sənayenin müəyyən həddə inkişafı əsas şərtlərdən biridir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra qarşıya qoyulan əsas hədəf inkişaf etmiş sənaye ölkəsinə çevrilməkdir. Şübhəsiz, bu, çətin və böyük zəhmət tələb edən bir prosesdir. İnkişaf etmiş ölkələr buna nail olmaq üçün uzun və çətin bir yol keçmişlər. Ancaq, bu, bizim üçün çox da çətin olmayacaq. Əsas səbəb də odur ki, indi dünyada yeni texnika və texnologiyaların transferi çətin deyil. İkincisi, ölkəmiz sənayenin inkişafı istiqamətində müəyyən yol qət etmişdir. Belə ki, ulu öndər Heydər Əliyevin səyi ilə Azərbaycan Sovetlər dönəmində inkişaf etmiş sənayeyə sahib olan müttəfiq respublikalardan biri idi.

Azərbaycan SSRİ dövründə nəinki İttifaqda, hətta dünyada neft sənayesinin inkişafına görə sayılıb-seçilən respublika idi. Sovet İttifaqındakı neft-maşınqayırma sənayesinin 72 faizi Bakıda cəmləşmişdi. Burada fəaliyyət göstərən müəssisələr daxili tələbatı ödəməklə yanaşı, dünya bazarına da neft-maşınqayırma avadanlıqları göndərirdi. Bununla yanaşı, ölkəmizdə sənayenin mürəkkəb sahələri olan alətqayırma, dəzgahqayırma, kimya sənayesi, neft emalı, elektrotexnika, həmçinin yüngül və toxuculuq sənayesi, eləcə də digər sahələr inkişaf etmişdi. İndi sənayeni müasir tələblərə uyğun yenidən bərpa etmək üçün geniş tədbirlərə başlamışıq.

Klaus Şvab əmindir ki, Dördüncü sənaye inqilabı gözümüzün qarşısında baş verir. Onun əlamətləri hər yerdə yayılmış İnternet, kiçik və güclü sensorlar, süni intellektdir. Tərəqqinin mühüm göstəricisi innovasiyaların tətbiqi ilə bağlı dəyişikliklərin miqyasıdır. Cəmiyyətin və iqtisadiyyatın transformasiyası heç vaxt bu qədər əhəmiyyətli olmamışdı. Amma inqilab bir prosesdir. İnternet müəyyən müddətdə bütün planetə yayıldı.

1993-cü ilin ortalarına doğru Azərbaycan Respublikasının az qala dünya xəritəsindən silinməsi kimi böyük fəlakətlərə gətirib çıxara bilərdi.

Bəli, dahi Heydər Əliyevin hakimiyyətə qayıdışı – Azərbaycanda qurtuluş anının və Dördüncü sənaye inqilabının başlanğıcı oldu! Qısa vaxt ərzində respublikada ictimai-siyasi vəziyyət sabitləşdi, yeni texnologiyalar həyatı, inancları və dəyərləri dəyişdirdi.

Birincisi, inkişaf tempi sürətləndi. Hər bir ardıcıl yenilik getdikcə daha səmərəli texnologiya yaratdıqca, inqilab inkişaf etdi. Bəşər tarixində heç vaxt dəyişiklik bu qədər sürətlə baş verməmişdi.

İkincisi, dəyişikliklərin ölçüsü genişləndi. Real və virtual dünyalar bir-birinə nüfuz edərək, qovşağında sıçrayışlı həllərin yaranmasına səbəb oldu. Transformasiyalar həm şaquli, həm də üfüqi istiqamətdə baş verdi. Nəticədə bütün səviyyələr insan, cəmiyyət, dövlət inkişaf etdi.

Üçüncüsü, bütün sistemlər dəyişdi. Texnologiyalar sistemlərin daxili və xarici komponentlərinə təsir göstərdi.

Dördüncüsü, süni intellekt insanların rifahına təsir edəcək əmək bazarında qlobal dəyişikliklərlə əlaqədar inkişaf etdi.

"İnqilab" sözü həyat tərzimizdə qəfil və dramatik dəyişiklik deməkdir. Onlara yeni texnologiyalar səbəb olur.

Heydər Əliyevin məharətli idarəçilik üslubu ilə artıq 1998-ci ilin əvvəlində Azərbaycanda Dördüncü sənaye inqilabının inkişafının daha yüksək sürətini təmin etmək baxımından kifayət qədər möhkəm zəmin yarandı.

Makroiqtisadi sabitləşmə və sənayenin dinamik inkişafı sahəsində qazanılan uğurlar ölkə vətəndaşlarının yaşayış səviyyəsinin nəzərəçarpacaq dərəcədə yüksəlməsinə imkan vermişdir ki, bu da ümummilli lider Heydər Əliyevin əsas məqsədlərindən biri idi. Onun bütün fərmanları, sərəncamları və tapşırıqları son nəticədə Azərbaycan vətəndaşının maddi rifahının durmadan yaxşılaşdırılmasına yönəlmişdi.

Ulu öndərin dünyanın aparıcı ölkələrinin rəhbərləri arasında qazandığı yüksək nüfuzu bir çox dövlətlərin, beynəlxalq təşkilatların və iri şirkətlərin Azərbaycanla əməkdaşlığa maraq göstərməsinə səbəb oldu. Bu gün Azərbaycan artıq 40-a yaxın beynəlxalq siyasi, iqtisadi, maliyyə-bank, mədəni, humanitar təşkilatın tamhüquqlu üzvüdür. Bütün bu nailiyyətlər bilavasitə ümummilli lider Heydər Əliyevin böyük xidmətlərinin nəticəsidir.

Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət kimi, ümummilli liderlik zirvəsinə ucalmış Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın Dördüncü sənaye inqilabı modelinin banisi kimi ehtiramla xatırlanır. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu bir ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürərək, onun həyata keçirilməsinə çalışmışdır. Sənaye sahəsində həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

Ümummilli liderin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Ulu öndər respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Ümumilikdə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət deməyə əsas verir ki, Heydər Əliyev milli ideyanın təcəssümü olan məqsədlərin gerçəkləşməsi, ələlxüsus, müstəqillik amilinin praktik şəkildə bərqərar olması baxımından, ilk növbədə, iqtisadiyyatda çoxşaxəli islahatların aparılmasını, davamlı inkişaf üçün bazisin formalaşmasını vacib saymışdır. Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyi illərində milli iqtisadiyyatda köklü islahatlar aparılmış, sosialyönümlü bazar iqtisadiyyatına keçidin ümdə prinsipləri müəyyənləşdirilmiş, torpaq islahatı kimi çətin və ağrılı proses, habelə özəlləşdirmənin birinci mərhələsi uğurla başa çatdırılmış, milli sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik aktları qəbul edilmiş, respublikanın dünya təsərrüfat sisteminə inteqrasiyası sürətlənmişdir.

İslahatlarda müasirləşmə və novatorluq əsas yer tutmuşdur.

Heydər Əliyevin bu siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev dəfələrlə bildirmişdir ki, ölkənin əsas hədəfi Azərbaycanı inkişaf etmiş sənaye ölkələri səviyyəsinə qaldırmaqdır. Bunun üçün ölkəmiz sənayeni inkişaf etdirməli, neft-qazdan asılılığı aradan qaldırmalıdır. Hazırda addım-addım bu məqsədə doğru irəliləyirik. Artıq bu sahədə böyük uğurların qazanıldığını da söyləmək mümkündür. Məsələn, Azərbaycanın kosmik ölkə olması böyük uğurumuzdur. Cənubi Qafqaz ölkələrində istehsal olunan sənaye məhsullarının 80 faizinin bizim payımıza düşməsi də adi bir fakt deyil.

Prezident İlham Əliyev Azərbaycanı dünyanın inkişaf etmiş sənaye ölkələrindən birinə çevirməklə bağlı gördüyü tədbirlər ardıcıl xarakter daşıyır. Dövlət başçısının 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycanın Dördüncü sənaye inqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanmışdır. Beləliklə də, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Mərkəzi yaradılmışdır ki, bu da ölkəmizi rəqəmsal və texnoloji mərkəzə çevirmək imkanı verir. Azərbaycandakı mərkəz MDB məkanında yaradılan ilk belə qurumdur.

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi 2021-ci il aprelin 1-dən yeni mərkəzin fəaliyyətini də koordinasiya edir. Mərkəz Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir. Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahəsində müxtəlif istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, Dördüncü sənaye inqilabı Şəbəkəsinin müxtəlif ölkələrdə (Türkiyə, BƏƏ, İsrail, Yaponiya) yaradılmış mərkəzləri ilə sıx əməkdaşlığın qurulması və genişləndirilməsi üçün müəyyən işlər aparılır. Dördüncü sənaye inqilabı fiziki, rəqəmsal və bioloji müstəvilər arasındakı sərhədlərin çulğalaşmasını təsvir etmək üsuludur. Bu, süni intellekt (AI), robototexnika, əşyaların interneti (IoT), 3D çap, gen mühəndisliyi, kvant hesablamaları və digər texnologiyalarda irəliləyişlərin birləşməsidir.

***Könül ƏLİYEVA,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İctimai fənlər" kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***

# Ümummilli liderin müdrik kəlamları alman dilində

**Almaniyanın "Zitate berühmter Personen" mədəniyyət portalı Azərbaycanda elan olunmuş "Heydər Əliyev İli"nə töhfə olaraq, dünya miqyaslı dövlət xadimi Heydər Əliyevin müdrik kəlamlarının yayımına başlayıb.**



Tərcümə Mərkəzindən bu barədə qəzetimizə verilən məlumatda qeyd edilib ki, Heydər Əliyevin həyatı və fəaliyyəti haqqında məlumatla təqdim olunan kəlamların alman dilinə tərcümə müəllifləri – Almaniya ədəbiyyatşünas alimi Martin Svoboda və Dövlət Tərcümə Mərkəzinin alman dili mütəxəssisi Məryəm Səmədovadır.

Xatırladaq ki, almandilli ölkələrin geniş oxucu auditoriyası tərəfindən izlənilən "Zitate berühmter Personen" portalı mütəmadi olaraq səhifələrində dünyaşöhrətli siyasətçi, filosof, yazıçı və şairlər haqqında məlumatlara və onların aforizmlərinə yer ayırır.

**"Xalq qəzeti"**

# Zaqatalada ulu öndərə həsr olunmuş konfrans






**"Heydər Əliyev İli" ilə əlaqədar Zaqatala rayonunda konfrans keçirilib. Əvvəlcə iştirakçılara ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx təqdim edilib.**

Yubiley məclisini giriş sözü ilə açan YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov ümummillil lider Heydər Əliyevin ölkəmizi müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardığını bildirib. O qeyd edib ki, Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tərəqqisi üçün geniş imkanlar yaradıb, torpaqlarımız işğaldan azad edilib, ölkəmiz möhtəşəm nailiyyətlərə imza atmaqdadır.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin zəngin dövlətçilik irsi və əbədiyaşar ideyalarının xalqımızın firavan həyatının təmin olunmasına, dövlətimizin güclənməsinə misilsiz töhfələr verdiyini, Azərbaycanı daim zirvələrə yüksəldəcəyini qeyd edib. YAP İdarə Heyətinin üzvü Bayram Aslanov ümummilli llider Heydər Əliyevin Azərbaycanın müstəqilliyini təmin etmək və ölkəmizi tərəqqi yoluna çıxarmaq kimi ağır və məsuliyyətli işin öhdəsindən müdrik siyasəti ilə uğurla gəldiyini vurğulayıb.

Milli Məclisin deputatı Kamilə Əliyeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, partiya fəalı Tahir Məmmədov, jurnalist İlqar Musaoğlu, şəhid Zəfər Murtuzəliyevin bacısı Mehparə Mirzəyeva, Vətən müharibəsi qazisi Nurlan Mazanov Heydər Əliyevin müdrik dövlət xadimi kimi zəngin fəaliyyətinin ayrı-ayrı dövr və məqamlarından söz açıblar.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına yeni qoşulan gənclərə üzvlük vəsiqələri, rayonun ictimai-siyasi həyatında yaxından iştirakına görə bir qrup partiya fəalına fəxri fərmanlar təqdim olunub.

**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# Bölgələrdə şahmat turnirləri

**Gədəbəydə rayon icra hakimiyyətinin təşəbbüsü, Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş şahmat turniri keçirilmişdir.**



Tədbirin açılışında iştirak edən rayon icra hakimiyyətinin başçısı Orxan Mürsəlov ulu öndər Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan, idmanın inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərdən söz açmışdır. O demişdir ki, eyni zamanda cənab Prezident İlham Əliyev ənənəni davam etdirir, bu sahənin inkişafına xüsusi önəm verir. Respublikamızın müxtəlif şəhər və rayonlarında tikilib istifadəyə verilmiş Olimpiya kompleksləri, digər idman qurğuları buna əyani sübutdur.

Rayon rəhbəri onu da vurğulamışdır ki, ölkəmizin son illərdə şahmat üzrə dünya və Avropa yarışlarında göstərdiyi nəticələr onu deməyə imkan verir ki, idmanın bu növünə maraq getdikcə artır. Ucqar dağ rayonu olan Gədəbəydə də şahmata marağın çoxalması çox sevindiricidir və biz bu işi daha da inkişaf etdirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Turnirin qalibləri RİH başçısının fəxri fərmanlarıı ilə mükafatlandırılmış və onlara hədiyyələr təqdim edilmişdir.

***

**Balakən rayonunda ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş idarə və təşkilatlar arasında şahmat üzrə rayon turnirində 28 şahmatçı mübarizə aparıb. Yarış rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Gənclər evində təşkil olunub.**



İdarədən bildirilib ki, zamanında ümummilli lider Azərbaycanda şahmatın inkişafına böyük qayğı göstərib və onun təşəbbüsü ilə rayonlarda şahmat məktəbləri yaradılıb. Bu turnirin keçirilməsində məqsəd də ulu öndərin xatirəsini yad etmək, rayonda şahmatın kütləviliyinə nail olmaqdır.

Gərgin mübarizə şəraitində keçən yarışın yekun nəticələrinə əsasən, rayon Gənclər və İdman İdarəsinin təmsilçisi Səfər Gəncəyev turnirin qalibi adını qazanıb. Rayon Statistika İdarəsinin əməkdaşı Asif Osmanovla Gənclər evinin təmsilçisi Fuad Mikayılov müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar.

Turnirin qalibləri diplomlarla mükafatlandırılıblar.

***H.QASIMOV,***
***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

# İranın “parlament fətvası”: bəyanat yoxsa, anti-Azərbaycan isteriyası?

## *Molla rejimindən Bakının Tel-Əvivdə səfirlik açmasına sərsəm reaksiya*

**Hər halda əndərəbadiliklərlə üzləşmək müstəqil Azərbaycanın alın yazısıdır. İran parlamentinin ölkəmizin İsrail dövlətində səfirliyinin açılması ilə bağlı müzakirə keçirib bəyanat qəbul etməsini başqa cür qiymətləndirmək, sadəcə, qeyri-mümkündür.**

həssasiyyəti üzərində oyun oynayır. Guya, özü fələstinlilər üçün nə isə edib! Heç nə etməyib!

Fars klerikal teokratiyası unudur ki, Bakı Tel-Əvivlə yanaşı, Ramallada da



Görəsən, iranlı parlamentarilər nə düşünürlər? Düşünmələri bir yana, nə yeyirlər, nə içirlər? Bəlkə, anlaqlı olmurlar? Mollalarla bağlı diaqnoz qoymaq çox çətindir. Ancaq elementar məntiq var. Necə ola bilər ki, o boyda ölkənin ali qanunverici orqanının üzvləri Azərbaycanın müstəqil dövlət olduğunu, dünyanın harasında səfirlik açıb-açmamağa özünün qərar verdiyini yaddan çıxarsınlar?!

Tamam, ölkəmizi müstəqil dövlət kimi qəbul etməyə bilərlər, çoxdankı xəstəlikləridir, ancaq bu qəbuledilməzlik müəyyən siyasi kularlarda ifadəsini tapan məsələdir. Açıqdan-açığa bəyanat ver, qəzəb, hiddət bildir və soruş ki, rəsmi Bakı niyə İsraildə səfirlik açdı, məsələyə hansı səmtdən yanaşsaq, buna ad tapmaq olmur. Hərçənd, psixi sağlamlıqla bağlı kitablarda mövcud istiqamətdə vahid müalicə üsullarının varlığına şübhə etmirik. İndi beynəlxalq miqyasda məsələ qaldıraq ki, İran parlamentinin 290 üzvündən 210-nun psixi problemləri var?

Bəli, Azərbaycan dövləti, eləcə də ölkəmizin ictimai rəyi İrana, Ermənistanın Qafan şəhərində konsulluq açanda, sərt etirazını bildirmişdi. Etiraz etməkdə haqlı idi. Çünki söhbət illərdir Azərbaycanın torpaqlarını işğalda saxlamış Ermənistandan gedirdi. O ölkədən ki, 44 günlük müharibədən sonra üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən yayınır, bölgədə yeni müharibə riski yaradırdı. Tehran isə Qafanda konsulluq açmaqla, İrəvanın manipulyasiyalarına dəstək nümayiş etdirirdi. Bu səbəbdən qınanmalı idi və qınandı da.

Ancaq, gəlin görək, İsrail İrana nə edib? Torpağınımı işğal edib, əhalisinimi didərgin salıb? Bəlkə İsrail İranın insanlarını soyqırıma məruz qoyub? Ermənistanda bir nəfər də azərbaycanlı qalmadığı təqdirdə, İranın paytaxtı Tehranda yəhudilər yaşayırlar. Heç şübhəsiz, İsraildə də bəlli sayda iranlı yaşamaqdadır. Belə olan halda, İran İsraili özünün fövqəltəbii düşməni statusuna qaldırıb ziddiyyət yaradır, daxildə idarəçilik üçün müəyyən ideoloji motiv formalaşdırır, lap deyək ki, xarici düşmən qondarıb yerli ictimai rəyi manipulyasiya edir, öz işidir, Azərbaycanı niyə məsələyə qatır? İran parlamentinin mövqeyini belə etiketdən kənar şəkildə ortaya qoyması bu baxımdan da anlaşılmazdır. Görünür, rejimin parlamentarilərinin başqa işləri-gücləri yoxdur...

Diqqət yetirək, İran parlamentinin 210 deputatı hesab edir ki, ölkənin Xarici İşlər Nazirliyi Azərbaycanın İsraildə səfirliyinin açılması ilə bağlı diplomatik addım atmalıdır? Başa düşmək olmur ki, nazirlik nə edəcək? Addım nə olacaq? Heç olmasa, səmimi olub SEPAH-dan tədbir gözləyərdilər. SEPAH dünyanın dörd yanında terror düzənləmək, qətllər törətmək, insan oğurluğu üzrə “ixtisaslaşmış” təşkilatdır. İranlı parlamentarilər, gərək, açıq tekstlə ondan Azərbaycanı qorxutmağı tələb edərdilər! Bəlkə də bəyanatda XİN-in adının çəkilməsi SEPAH üçün subliminal mesajdır. Nə bilmək olar?

Məsələyə mövcud kontekstdən yanaşsaq, Tehranın terror sifəti öz işini görüb. Azərbaycanın İsraildə səfirliyinin açıldığı gün, yəni martın 28-də Milli Məclisin deputatı Fazil Mustafaya qarşı sui-qəsd reallaşdırılıb. Yəqin, İran parlamenti addım deyərkən, SEPAH-dan daha ciddi tədbirlər gözləyir. Başqa dövlətin işinə, özü tam haqsız durumdaykən, qarışan ölkədən nə desən çıxar!

İran parlamentinin bəyanatında o da deyilir ki, Azərbaycan hökuməti “sionist rejimin mərkəzində səfirlik açaraq, öz səfirini saxta rejimə təqdim etməklə, İslam dünyasının maraqlarına zidd hərəkət edir”. Hesab edirik ki, bundan böyük həyasızlığı müsəlman dünyası, ümumiyyətlə, görməyib və görməsi tam mümkünsüzdür. Müsəlman Azərbaycanının torpaqlarının işğalına göz yumasan, 30 ilə yaxın müddətdə bu torpaqların talanmasında iştirak edəsən, Allahın evi sayılan məscidlərdə, İslam aləmində haram buyurulmuş donuz saxlayaraq müsəlmanlara həqarət yağdıran Ermənistana dəstək olasan, sonra da qayıdasan ki, Azərbaycan İslam dünyasının maraqlarına zidd davranır! Bu məntiqlə yanaşsaq, nəinki İslama zidd hərəkət edən, hətta dinə birbaşa xəyanət yolu tutan İranın özüdür. Həm də söhbət çox böyük xəyanətdən gedir.

Diqqət yetirək, İran parlamenti bəyanatında fitnəkarlıq zəngulələri vurur, həmçinin, hədə-qorxu gəlir. Fitnəkarlıq odur ki, sənəddə ölkəmizin İsraildə səfirlik açması fonunda ölkəmiz “fələstinliləri öldürən və onlara zülm edən sionist rejiminin şəriki” kimi qiymətləndirilir. Göründüyü kimi, belə demək mümkünsə, zərbə olduqca həssas nöqtəyə vurulur. Yəni, Tehran müsəlmanların Fələstin səfirlik açıb. Buna diqqət yetirməmək və Azərbaycanı qınamaq, yumşaq söyləsək, ədalətsizlikdir. Bəyanatdakı hədə-qorxu motivi də tam aydındır. İran parlamenti bildirir ki, Bakının addımı “bir çox mənfi siyasi nəticələrə səbəb olacaq”. Fars şovinizmi onu da yaddan çıxarır ki, dünya müsəlmanları İsraillə əməkdaşlığa pis yanaşmır. Bu əməkdaşlıqdan İslam aləmi uduzmur, əksinə rəsmi Tel-Əviv dəfələrlə bəyan edib ki, Azərbaycan İsrailin müsəlman aləmi ilə körpüsüdür. Deməli, uduş imkanları var. Çünki yəhudi dövləti müsəlman dünyası ilə əməkdaşlıqda maraqlıdır.

İndi düşünək görək, həmin İslam aləmində İranı dəstəkləyən müsəlman dövlətləri hansılardır? Tehran rejimi özünün saxta mahiyyəti ilə, demək olar, bütün müsəlman ölkələri ilə düşmən münasibətdədir. İslam dininin beşiyi sayılan Səudiyyə Ərəbistanımı, Qətərmi, Birləşmiş Ərəb Əmirliyimi, Pakistanmı, Əfqanıstanmı, – hansı İran parlamentinin fətva qoxusu gələn bəyanatına diqqət yetirib, Azərbaycanla münasibəti gərginləşdirəcək?! Əlbəttə, heç biri!

Daha bir absurda baxın ki, İranın ali qanunverici orqanı bəyanatında ərəb və islam ölkələrinin hökumətlərinə, İslam Əməkdaşlıq Təşkilatına da müraciət edərək, Azərbaycanın bu addımını pisləməyə çağırır. Görünür, Azərbaycanın İƏT-lə yüksək səviyyəli əməkdaşlığının mövcudluğunu da unutmaq yolu tutur. İƏT vaxtilə Azərbaycan torpaqlarının işğalda qalmasını pisləmişdi. İran bunu etmişdimi? Etməmişdi və yalnız tək-tük növbətçi bəyanatla məhdudlaşmışdı. Digər tərəfdən, İranın öz daxilindəki türklərlə yanaşı, ərəblərə də düşmən münasibəti danılmaz faktdır. Yəqin, İransayağı müsəlman təəssübkeşliyi elə belə də olurmuş!

Dünya müsəlmanları İsrailin Azərbaycanının haqq işini dəstəklədiyini də gözəl bilir. Buna və yuxarıda sadaladıqlarımıza görə onlardan heç birinin Tehranın sözü ilə ölkəmizə qarşı çıxacağını düşünmək, sadəcə, nonsensdir. Molla rejiminə qalan isə əsassız ittihamlar olacaq, başqa heç nə. Və gün gələcək ki, o rejim İslama vurduğu bütün zərərlərə, müasir dövrdə məzhəbçiliyi siyasi vasitəyə çevirib müsəlman dünyasına vurduğu bütün ziyanlara görə mütləq cavab verəcək. O günün tezliklə yaşanması üçün dua edir, istəyimizin gerçəkləşməsi naminə imzamızı atırıq.

**AMİN**

**Yeddi ay bundan əvvəl hicabını atmış iranlı gənc qızın polis idarəsində döyülərək öldürülməsinə etirazla başlayan aksiyalar bu gün Tehranın molla rejiminnə qarşı ən radikal siyasi tələb-şüarlarla ölkənin dayaqlarını silkələməkdədir. “Diktaturaya yox!”, “Diktatora ölüm!” şüarları altında davam edən mübarizəyə İrandakı qeyri-fars xalqlar mütəşəkkil şəkildə qoşulublar.**

# Xalqlar fars istibdadına qarşı mübarizədə birləşirlər

Ötən ilin sentyabrında İranda başlayan kütləvi etiraz aksiyaları bu gün də davam edir. Aksiyalarda səsləndirilən şüarlar da özünün siyasi xarakteri və kəskinliyi ilə fərqlənir. Qərbi və Şərqi Azərbaycan, Kürdüstan, Mazandaran, Xuzistan və digər əyalətlərdə on minlərlə insanın etiraz aksiyası səngimək bilmir. İranın azərbaycanlıların çoxluq təşkil etdiyi şəhərlərində gənc fəallar üçrəngli milli bayrağımızı qaldırıblar. Əgər bu vaxta qədər etirazçılar sadəcə olaraq “Diktatora ölüm!” şüarını səsləndirirdisə, bu gün artıq “Azərbaycan milləti – çəkəməz bu zilləti!”, “Biz ölməyə hazırıq, Babəkin sərbazıyıq!”, “Xameneiyə ölüm!”, “Qadın, Həyat, Azadlıq!” kimi radikal şüarlar da səsləndirirlər.

### *Ekspert rəyi*



**Yeganə Hacıyeva, politoloq:**

– Ötən ilin sentyabrından İranda vüsət almış etirazların bir neçə təməl əsasları var. Əsas səbəb heç də hicab taxmayan qadının əxlaq polisi tərəfindən döyülərək öldürülməsi deyil, ümumilikdə, əhalinin siyasi rejimdən narazılığıdır. Rəsmi Tehranın cəmiyyətə qarşı apardığı repressiyaların xronologiyasına baxmaq kifayətdir ki, cəmiyyətin özünümüdafiəyə məcbur olmasını başa düşək.

Mövcud olduğu 44 ildə Tehranın təqib və repressiyalarına məruz qalanlar ən çox məhz milli azlıqlar olub. Təqib olunanların da önündə Azərbaycan türkləri gedir. Molla rejimi, misal üçün, ermənilərə göstərdiyi diqqət və qayğını heç vaxt bəluclara, kürdlərə, yaxud digər müsəlman xalqlarına, yaxud azlıqlara göstərməyib. Baxmayaraq ki, güneyli soydaşlarımızla müqayisədə ermənilər nəinki azsaylı xalq, heç etnik qrup qədər saya malik deyillər. Amma son zamanlar ard-arda qadınların, uşaqların öldürülməsi İran cəmiyyətini xeyli qıcıqlandırdı.

Hazırki prezident, mühafizəkar İbrahim Rəisi isə öz sələfləri ilə müqayisədə cəza mexanizmini sərtləşdirdi. O, prezidentliyinin ilk altı ayında son on ildə öldürülənlərdən daha çox insanı qətlə yetirdi. Buna görə Qərbdə onu “ölüm mələyi” adlandırdılar. Maraqlıdır ki, bu və ya digər səbəbdən edam edilənlərin doxsan faizindən çoxu qeyri-fars millətindən olan xalqların nümayəndələridir. Yəni, rejim etiraz aksiyalarını etnik qruplara qarşı repressiya üçün bəhanə bildi. Burada böyük say Azərbaycan türklərinin payına düşür. Sonrakı yerlərdə kürdlər, sonra bəluclar, onlardan sonra isə ərəb mənşəlilər gəlir. İndi etnik qrupların rejimə qarşı birlikdə mübarizə aparmasının səbəblərini burada axtarmaq lazımdır.

Tehran etirazçıların ehtirasını soyutmaq üçün ictimai rəyə əxlaq polisini buraxacağı ilə bağlı informasiya ötürsə də, SEPAH-a bağlı bu qurumun ləğvi mümkün deyil. Yəni, mövcud rejimin dəyişilməsindən savayı çıxış yolu görünmür.

ya uğrayan daha çox qeyri-fars kökənli vətəndaşlardır. Rejim səbr kasası dolmuş insanların qarşısına çıxaraq, onların dərdini dinləmək, problemlərdən çıxış yolları aramaq əvəzinə, etirazçılara divan tutmağa qərar verdi.

Kütləvi həbslərə və edamlara xeyir-duasını verən yaşıl tiranlar bu günədək 200-dən çox etirazçını edam etmiş, 500-dən çox insanı isə zindanlara atmışlar. Rəisi hakimiyyətinin feodal təfəkkürlü daxili siyasəti yerli xalqların müqavimət gücünü daha da artırır, vəziyyət isə gərginləşməkdə davam edir. Təbrizdə keçirilən Təbiət Günündə gənc qızın ictimaiyyət qarşısında başıaçıq Azərbaycan rəqsini ifa etməsi, başqa bir hicablı qadının ona təşəkkür etməsi, Xuzistan əyalətində Qaşqay türkləri tərəfindən 13-cü Bədr mərasiminin rəqs və şənliklə qeyd olunması, bu zaman hicablı və hicabsız qadınların, kişilərin yanaşı durması xalqın molla rejiminin yasaqlarından cana doymasının göstəricisi idi. Güneyli soydaşlarımızın səsinə səs verən Kürdüstan Müəllimlər Birliyi müəllim fəal Süleyman Abdinin həbsi ilə bağlı Tehrana ultimatum ünvanlayıb. İndi onlar Saqqız şəhərindəki təhsil müəssisəsinin binası qarşısında etiraz aksiyası düzənləməyə hazırlaşırlar. Müəllim Abdinin günahı isə aksiyada iştirakı və gənc qızın polis tərəfindən öldürülməsinə etiraz etməsi olub.

## Qeyri-farsların koalisiyası qurulur

Yuxarıda qeyd etdiyimiz kimi, İranda yaşayan yerli xalqlar fars-molla istibdadına qarşı mübarizədə birləşməyə qərar veriblər. Bu inqilabi hərəkata əhalinin 40 faizindən çoxunu təşkil edən Azərbaycan türkləri rəhbərlik edirlər. Fəqət, bu ölkədəki mövcud rejimi dəyişməyin başqa yolunun qalmadığını azsaylı etnik qruplar da anlamağa başlayıblar. Bəli, artıq güneyli soydaşlarımızla yanaşı, bəluclar, kürdlər daxil olmaqla, bütün qeyri-farslar vahid mərkəzdən idarə olunmaqla mübarizəni davam etdirirlər. Son məqsəd hamıya məlum olduğundan, artıq qeyri-farsların, müxtəlif xalqların koalisiyasından danışmaq mümkündür. Hadisələrin hansı sonluğa gətirib çıxaracağını isə zaman göstərəcək. İndi İranda siluetləri açıq görünən reallığı hamı görür və başa düşür. Bu ölkənin heç bir perspektivini görmədiyindən İranı tərk edənlərin sayı isə hər gün artır. Hələ etiraz aksiyalarından əvvəl İranı hər il 60 mindən çox insan tərk edərək, əsas etibarilə Kanada və ABŞ-ə üz tuturdu. Pandemiya başa çatdıqdan sonra belələrinin sayı kəskin artıb.

## Brüsseldən əks-səda

Tehran rejiminin haqq və ədaləti tələb edənlərə divan tutmasına etiraz əlaməti olaraq 500-ə qədər güneyli soydaşımız və onların tərəfdarları Brüsseldə Avropa Parlamentinin binası qarşısında etiraz aksiyası keçirdi. Güney azərbaycanlı fəallar tərəfindən təşkil olunan, “İran üçün Azadlıq və Ədalət toplantısı” şüarı altında düzənlənən aksiyaya İranda yaşayan qeyri-fars xalqların nümayəndələri, Ukrayna diasporunun üzvləri, Azlıqların Müdafiəsi üzrə Avropa jurnalistləri və Avropa Assosiasiyasının təmsilçiləri qatılıblar. Dinc nümayişin məqsədlərindən biri də Güneydəki azərbaycanlıların İİR-in qeyri-fars xalqları idarəetmədə və siyasi sahədə qərar qəbul edilməli bütün sahələrindən kənarlaşdırmaq, onlar



## Ayları binadan atan rejim

Bir müddət əvvəl Təbrizdə etirazlar zamanı öldürülən Tibb Universitetinin tələbəsi Aylar Həqqinin dəfnində iştirak edən xeyli sayda soydaşımız bu qətlə etirazlarını bildirib. Oxucularımıza xatırladaq ki, azərbaycanlı gənc tələbə SEPAH-ın etirazçılara qarşı zorakılığından, güc tətbiq etməsindən sonra yaxınlıqdakı binalardan birinə sığınıb. Onları təqib edən bir qrup xüsusi təyinatlı qızın arxasınca binaya girib və Aylar Həqqini oradan aşağı atıb. Nəticədə ağır bədən xəsarətləri alan gənc qız elə hadisə yerindəcə canını tapşırıb. Bu, azmış kimi, güc strukturları Aylar Həqqinin rabitə idarəsində çalışan atasına dəfn mərasimini tamamilə səssiz keçirmək, onu ictimailəşdirməmək barədə xəbərdarlıq ediblər.

Əslində, Tehranın müstəbid rejiminə qarşı aksiyalarda ölkədəki bütün millət və xalqların nümayəndələri iştirak etsələr də, nədənsə, cəzalandırılan, repressiya haqqında dezinformasiya yaymaq kimi ideoloji siyasətini ifşa etmək olub. Aksiya iştirakçıları “İran daxilindəki bütün qeyri-fars xalqlar, eləcə də SEPAH zorakılığının qurbanı olmuş qadınlar və gənclər üçün ədalət və azadlıq” tələb edib. Mitinq iştirakçıları molla rejimi tərəfindən etirazçıların həbsini və siyasi dissidentlərin edamını, Ukraynada mülki şəxslərə qarşı İranın pilotsuz uçuş aparatlarından istifadə olunmasını pisləyib, habelə Avropa İttifaqını İranın nüvə silahı əldə etməsinin qarşısını almağa çağırıblar.

44 il ərzində ölkəni özü boyda xalqlar həbsxanasına çevirən İranın fars-molla rejimi məhz bu səbəbdən üzləşdiyi kütləvi etirazın təşkilatçılarını kənarda deyil, daxildəki zorakı idarəetmədə, cəza sistemində, milli ayrı-seçkilik siyasətində axtarsa, ona çıxış yolunu göstərəcək cavabı daha tez tapmış olar.

**İmran BƏDİRXANLI, “Xalq qəzeti”**

# Mingəçevirlilər Aprel döyüşlərinin ildönümünü öyünclə qeyd etdilər





**Mingəçevirdə “Aprel döyüşləri: Böyük zəfərin müqəddiməsi” mövzusunda konfrans keçirilib. Iştirakçılar əvvəlcə Heydər Əliyev Mərkəzində Aprel döyüşlərini əks etdirən şəkillərlə, şagirdlərinin etdirən əl işlərindən ibarət sərgi ilə tanış olublar.**

Mingəçevir şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov konfransı açaraq billdirib ki, 2016-cı il aprel ayının əvvəlində erməni qəsbkarların növbəti təxribatına cavab olaraq silahlı qüvvələrimizin apardığı uğurlu əks-hücum əməliyyatı ölkəmizin işğal edilmiş ərazilərini hərbi yolla azad etməyə qadir olduğunu bütün dünya göstərdi. Bu döyüşlərdə işğal altında olan 2 min hektaradək ərazi azad edildi.

DQİDK Yevlax bölgəsi üzrə şöbənin baş məsləhətçisi Əlisa Fərəcov, şəhid Rüstəm Əhmədovun atası Oruc Əhmədov, Rahim Tağıyevin həyat yoldaşı Vüsalə Tağıyeva, Adil Adilzadənin anası Gülnarə Abdullayeva, YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev, şəhər veteranlar təşkilatının sədr müavini Rizvan Mikayıllı, şəhər Bələdiyyəsinin şöbə müdiri Zahid Qasımlı qeyd ediblər ki, Aprel döyüşləri tarixə ordumuzun qüdrətinin, qəhrəmanlığının, xalqımızın həmrəyliyinin və öz rəhbəri ətrafında sıx birliyinin təcəssümü kimi yazılıb.

Konfransda bildirilib ki, Aprel döyüşlərində şəhid olmuş 4 mingəçevirlinin – Teymur Qasımovun, Adil Adilzadənin, Rüstəm Əhmədovun və Rahim Tağıyevin adları şəhərdə əbədiləşdirilmiş, hər birinin adına küçə verilmiş, ikisinin ailəsi mənzillə təmin edilmiş, ikisinin də ailəsinin mənzilləri yenidən tikilmişdir.

**İ. MUSAOĞLU,**
**“Xalq qəzeti”nin bölgə müxbiri**

# Təcili Xankəndiyə...

## Azərbaycanın Qarabağ ermənilərinə xoş niyyətinə İrəvandan əngəl

**“Azərbaycan erməni sakinlərin reinteqrasiyasında qərarlıdır”. Bu fikri xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Bik Lum ilə görüşündə bildirmişdir.**

Ümumən, ölkəmizin rəsmiləri qeyd etdiyimiz məsələdən həmişə söz açıblar. Mövcud xüsusda Azərbaycan Prezidenti İlham Əliyevin də fikirləri olub. Dövlətimizin başçısı martın 9-da “Dünya bu gün: Çağırışlar və ümidlər” mövzusunda keçirilmiş X Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında müxtəlif etnik qrupların və konfessiyaların nümayəndələrinin Azərbaycanda ləyaqətli və dinc şəraitdə yaşadıqlarını vurğulamaqla yanaşı, qeyd etmişdi ki, Qarabağ regionunda yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq, bundan sonrakı dövrdə daha yaxşı olacaq.



Bundan əvvəl isə Laçın–Xankəndi yolunda aksiya keçirən azərbaycanlı fəallar onlardan siqaret istəyən erməni sakini əlidolu yola salmışdılar. Həmin erməniyə nəinki siqaret, eyni zamanda, zəruri ərzaq malları da verilmişdi. Bu, onu göstərir ki, Azərbaycan Qarabağın erməni sakinlərilə dinc, birgəyaşamın qurulmasında maraqlıdır və mövcud istiqamətdə əlindən gələni edir, səmimiyyət göstərir. Aprelin 4-də Laçın–Xankəndi yolunda halı pisləşmiş ermənilərin Xankəndiyə bizə məxsus təcili tibbi yardım avtomobili ilə çatdırılması da dediklərimizin təsdiqidir.

Xatırladaq ki, Laçın–Xankəndi yolunda Rusiya sülhməramlıları Şuşa həkimlərindən yardım istəyiblər. Ruslar Laçın–Xankəndi yolunda aksiya keçirilən əraziyə yaxınlaşaraq, həkimə ehtiyac olduğunu bildiriblər. Əraziyə gətirilən erməni xəstələrə ilkin tibbi yardım göstərildikdən sonra onlar təcili tibbi yardım maşını ilə Xankəndi xəstəxanasına çatdırılıblar.

İlkin tibbi yardım göstərənlərdən biri – Şuşa şəhər modul tipli xəstəxananın tibb bacısı Gülsüm Həsənova deyib ki, Xankəndidə onları görən ermənilər həyəcanlandılar. Şuşa modul tipli xəstəxanasının həkimi Vilad Əliyev isə əlavə edib ki, tezliklə bu həyəcan yerini xoş rəftara verdi: “Azərbaycan Respublikasının erməni əsilli sakinlərinə tibbi xidmət göstərmək bizim vəzifə borcumuzdur. Bizi Xankəndi xəstəxanasında çox yaxşı qarşıladılar, öz vətəndaşlarımıza xidmət göstərdik. Əlimizdən gələni etdik”.

Əlbəttə, tibb bacısı G.Həsənovanın haqqında söz açdığı həyəcanın olması təbiidir. Ancaq bu yol gedilməlidir. Qarabağın erməni sakinləri, eyni zamanda, nəzərə almalıdırlar ki, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən, paytaxt Bakıda onların soydaşları yaşayırlar və heç bir halda həyəcan keçirmir, özlərini ölkəmizin tamhüquqlu vətəndaşları kimi hiss edirlər.

Digər tərəfdən, haqqında söz açdığımız məsələ, həm də prinsipial əhəmiyyət daşımaqdadır. İstər Ermənistan rəhbərliyi, istərsə də Qarabağdakı separatçı rejimin təmsilçiləri bilməlidirlər ki, bölgənin erməni sakinləri ilə bağlı heç bir müzakirə beynəlxalq müstəviyə daşına, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasında meyar kimi qəbul oluna bilməz. Əlbəttə, Qarabağdakı separatçılığın özünün tamamilə yox olması da prinsipial məsələdir. Bunu Azərbaycan Prezidenti İlham Əliyev də qətiyyətli şəkildə dilə gətirib. Dövlətimizin başçısı ötən ilin oktyabrında Ağdamda keçirilmiş Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında bildirib: “Azərbaycanın Qarabağ regionunda yaşayan erməni əhalisi bizim vətəndaşlarımızdır və biz onların həyatını necə qaydaya salacağımızı heç bir beynəlxalq mərkəzlə müzakirə etməyəcəyik”.

Bəs, Azərbaycanın reinteqrasiya istiqamətində addımlarına qarşı tərəfdən hər hansı cavab varmı? Qarşı tərəf dedikdə, söhbət, əlbəttə ki, Ermənistan rəhbərliyindən gedir. İrəvan özünü dünyaya Qarabağ ermənilərinin hamisi obrazında göstərmək istəyirsə, ilk növbədə, Bakıya müsbət cavab verməli, mövcud reallıqlar çərçivəsində, heç olmasa, nəzəri də olsa, haqqında söz açdığımız obrazın formalaşması və qəbuluna çalışmalıdır. Təəssüf ki, bunu görmürük. Belə nəticəyə gəlirik ki, İrəvanın hakim siyasi dairələrində Azərbaycana qəzəb hissi böyük olduğundan, hətta, özləri üçün indiki məqamda ən sərfəli sayılan variantlara da razı deyillər, avantüra axtarışında israrlıdırlar.

Bəli, Ermənistan hakimiyyəti Azərbaycanın erməni sakinlərlə dialoq aparmaq istiqamətində qərarlı fəaliyyətinə mane olmaq məqsədilə, erməni sakinlərinin nümayəndələrinin növbəti dialoqun Bakıda keçirilməsi təklifilərinə qarşı çıxır və prosesə dair şərtlər irəli sürür. Elə görüntü yaradır ki, sanki, şərt irəli sürən Qarabağ erməniləridir. Halbuki, onlar öz canları hayındadır. Elə Xankəndi xəstəxanasına çatdırılanlar kimi. Əlbəttə, onların fiziki sağlamlıqlarında problem var. Fəqət, ümumən, Qarabağ ermənilərini xəstə duruma salan baş nazir Nikol Paşinyanın administrasiyasıdır. Erməni iqtidarı, dünya erməniliyi və onun xaricdəki havadarları son iki ildə yeni Laçın yolunun çəkilişi, Sərsəng su anbarı və bir sıra digər istiqamətlərdə erməni sakinlərlə uğurlu dialoqumuzu həzm edə bilmirlər.

Məsələ ilə bağlı Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan əleyhinə 18 mart tarixli bəyanatına cavabında bildirdiyi kimi, İrəvan “reinteqrasiya” termininə düşmən münasibətini gizlətmir və bu anlayışı dialoq və sülhə qarşı əks çağırış kimi qələmə verir.

Bəli, Ermənistan hakimiyyətinin reinteqrasiyaya maneçilik törətməsi, onun əsassız ərazi iddialarını yeni forma və adlar altında davam etdirmək niyyətindən xəbər verir. İrəvan, həqiqətən, bölgədə sülhdə maraqlıdırsa, Azərbaycanın mərkəzi hakimiyyət orqanlarının erməni sakinlərin reinteqrasiya məqsədli təmaslarına müdaxiləyə, buna əngəl törətmək cəhdlərinə son qoymalıdır.

***Ə.RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# Simonyanın hayları ayağa qaldıran tərbiyəsizliyi

**Hazırda Hayastanda gündəmdəki bir nömrəli personanın parlamentin sədri Alen Simonyan olduğunu desək, yəqin ki, yanılmarıq. Aprelin 3-də bu ölkə mediası A.Simonyana istinadən ölkənin baş naziri Nikol Paşinyanın oğlu Aşotun İrəvanda döyülməsi ilə bağlı məlumat yayıb. Bununla belə spiker hücumun harada, necə və hansı şəraitdə törədildiyini açıqlamayıb. Sadəcə qeyd edib ki, bu, dövlət məmurlarına və onların yaxınlarına qarşı törədilən silsilə təxribatlardan biridir. Həmin gün Ermənistan polisinin mətbuat xidməti N.Paşinyanın oğlunun döyülməsi ilə bağlı şikayət daxil olmadığını açıqlayıb. Aşot özü də bir gün sonra hücuma məruz qaldığı barədə yayılan məlumatı qəti şəkildə təkzib edib.**

A.Simonyanın Ermənistan cəmiyyətində çaşqınlıq yaradan bu məlumatı yaymaqda məqsədinin pünhan qaldığı bir məqamda spiker yeni qalmaqala imza atıb. Bu dəfə lap gül vurub. Parlamentin spikerini İrəvanın mərkəzində mühafizəçilərin əhatəsində görən Karen Mkrtçyan adlı gənc onu uca səslə “xain” və “satqın” adlandırıb. Simonyan “cangüdənlər zənciri”ni sakitcə qıraraq, həmin gəncə yaxınlaşıb və onun üzünə tüpürüb. Simonyan baş vermiş hadisəni izah edərkən gəncin üzünə tüpürdüyünü fəxrlə təsdiqləyib.

Ermənistan parlamentinin müxalifətçi deputatları Ayk Mamicanyan və Aspram Krpeyan isə spikerin mühafizəçilərinin gəncin əllərini arxaya doğru burduqlarını, yalnız bundan sonra Simonyanın yaxınlaşaraq onun üzünə tüpürdüyünü bildiriblər.

***

Bu hadisə onsuz da narazılıqla dolu Ermənistan cəmiyyətində yeni gərginliyin yaranmasına səbəb olub. Ən ciddi narazılığı ölkənin birinci prezidenti Levon Ter-Petrosyan bildirib. O qeyd edib ki, hisslərini nə qədər cilovlamağa çalışsa da, baş vermiş iyrənc hadisəni düşünməkdən özünü saxlaya bilmir. Ter-Petrosyan “İlur.am” saytında dərc olunan məqaləsində yazıb: “Tüpürmək sözü (tibb sahəsi istisna olmaqla) özlüyündə vulqardır və məişət mübahisələri zamanı işlədildikdə kifayət qədər məqsədəuyğundur. Amma bu söz ən yüksək dövlət məmurlarından birinin ağzından çıxanda, xüsusilə konkret hərəkətə çevriləndə, bu, artıq dövlətin sonu olur. “Xain” və “satqın” sözlərinə gəlincə, bu, məişət səviyyəsində söyüş və ya şəxsi təhqir deyil. Sırf siyasi qiymətdir ki, buna kobud söz və ya tüpürcəklə deyil, hakimiyyətin informasiya və təbliğat sahəsində qeyri-məhdud imkanlarının olduğu indiki şəraitdə düzgün və ağlabatan cavab verilməlidir”.

Ter-Petrosyan A.Simonyanı “bədnam”, onun əməlini “bağışlanmaz” adlandırıb. Ermənistan parlamentinin, ilk növbədə onun çoxluqda olan “Mülki müqavilə” fraksiyasının xalq arasında nüfuzunu itirməməsi üçün A.Simonyanın işdən çıxarılması məsələsinə təşəbbüs göstərməyə borclu olduğunu vurğulayıb: “Mən heç də şişirtmirəm, onun bu hərəkəti dövlətçiliyimizin nüfuzuna vurulan ən böyük zərbədir. Bunu ancaq onun vəzifədən uzaqlaşdırılması bahasına aradan qaldırmaq olar. Bu, xalqımızın beynəlxalq ictimaiyyət qarşısında şərəfini bərpa etməyin yeganə yoludur”.

Hayastanın ilk prezidenti bütün KİV-ləri yazdığı məqaləni yaymağa, cəmiyyəti, siyasi qüvvələri sırf qanuni yollarla A.Simonyanın vəzifədən uzaqlaşdırılması üçün fəaliyyət göstərməyə çağırıb.

***

Ter-Petrosyanın çağırışına ilk olaraq “Mediamaks” şirkətinin direktoru Ara Tadevosyan cavab verib. O, rəhbərlik etdiyi “mediamax.am” saytında dərc etdirdiyi “Alen Simonyan tüpürür, amma Qərb üçün “yağış yağır”” sərlövhəli məqalədə yazır: “Parlament demokratiyası sayılan Ermənistanın qanunverici orqanının rəhbərinin bu çirkin əməlinə nə ABŞ səfirliyi, nə də Avropa İttifaqının komissiyası heç bir reaksiya verməyib. Belə iyrənc hallarda susmaqla ABŞ səfirliyi yalnız Ermənistan siyasi həyatında, cəmiyyətində və mediasında qütbləşmənin dərinləşməsinə töhfə verir. Bunun da sonu Ermənistanda hamının hamıya nifrət edəcəyi bir vəziyyətin yaranması olacaq. Əminəm ki, xanım Quinn (ABŞ-ın yeni təyin olunmuş səfiri Kristina Quinn) bundan xəbərdar olmaya bilməz”.

A.Tadevosyan daha sonra yazır: “Alen Simonyan yalnız ona görə Ermənistan parlamentinin sədridir ki, biz uydurma reallıqda yaşayırıq. Başqa heç bir şəraitdə Alen Simonyan nəinki dövlətdə ən yüksək vəzifələrdən birini tutmaz, hətta siyasi qərarlar qəbul etməyə də yaxın olmazdı”.

Dünən Hayastanın 11 QHT-si bəyanat yayaraq Simonyanın davranışının parlamentin Etika Komitəsində araşdırılmasını, həmçinin cinayət məsuliyyətinə cəlb olunmasını tələb ediblər: “Alen Simonyan öz şəxsi nümunəsi ilə dövlət idarəçiliyinin əvvəlki biabırçı ənənələrini qoruyub saxlamağa sövq edir, öz davranışı





ilə antisosial davranışa haqq qazandırır. Onun davranışını qətiyyətlə pisləyərək, deputatlardan, xüsusən də siyasi çoxluqdan dövlət məmurlarının hüquqi dövlətin dəyərlərinə uyğun olmayan kini və məsuliyyətsiz davranışları istisna etmək üçün səy göstərmələrini tələb edirik. Biz parlamenti təcili olaraq etika komissiyası yaratmağa və baş verənləri araşdırmağa, həmçinin Simonyanın məsuliyyətə cəlb edilməsi məsələsinə baxmağa çağırırıq. Baş verənlər hüquq-mühafizə orqanları tərəfindən, xüsusilə xuliqanlıq cinayəti ilə bağlı cinayət işi çərçivəsində araşdırılmalıdır”.

***

Məsələnin getdikcə böyüdüyünü görən A.Simonyan iş-işdən keçəndən sonra insidentə münasibət bildirib və deyib ki, tüpürmək söhbət zamanı təsadüfən (?) baş verib.

Bu arada “news.am” saytı A.Simonyanın hakim “Mülki müqavilə” partiyasının idarə heyətinin aprelin 4-də axşam keçirilən iclasını yarımçıq tərk etməsinə dair məlumat yayıb. İclasa Simonyanın gedişindən 15 dəqiqə sonra qatılan Nikol Paşinyan sədrlik edib. Baş nazir görüşdə nələrin müzakirə olunduğu və Simonyanın istefası ehtimalının nəzərdən keçirilib-keçirilmədiyi ilə bağlı sualları cavablandırmayıb. Mətbuatın yazdığına görə, sonuncu məsələ iclasda əsas məsələlərdən biri ola bilər.

Simonyan özü isə onunla Paşinyan arasında fikir ayrılığının olmadığını bildirib. Qeyd edib ki, aralarında fikir ayrılıqları yoxdur və ola da bilməz, çünki onların hər ikisi eyni komandadadır.

***

Onu da qeyd edək ki, bu hadisə A.Simonyanın iştirakı ilə baş verən ilk hadisə deyil. Hər zaman özünə xüsusi fikir verməyi, baxımlı olmağı, səliqəli geyinib-keçinməyi, saç düzümü, komfort həyatı ilə seçilən qərbyönümlü bu dikbaş 44 günlük Vətən müharibəsi zamanı Yunanıstanda istirahət etməsi ilə gündəmə gəlmişdi. Həmin il onun 40 yaşı tamam olmuşdu. Onun həmyaşıdları müharibədə iştirak edəndə, qurban gedəndə, yaralananda kraxmallı, tumarlı Simonyan Afinada dincəlirdi.

Müharibədən sonra isə Ermənistan cəmiyyəti onun terror-diversiya əməllərinə görə həbs edilən və barələrində Azərbaycan məhkəmələrinin hökm çıxardığı şəxslərlə bağlı dediyi sözlərlə çalxalanırdı. Bu növcavan o zaman demişdi: “Məhbuslar mənim üçün artıq mövcud deyil. Bir tərəfdən əsir düşən (?) əsgərlərin özlərini alçaldılmış hiss etməsini istəmirik, digər tərəfdən də ictimaiyyətimiz və hərbçilərimiz bilsinlər ki, əsir düşmək (?) yaxşı hal deyil”.

Onu da qeyd edək ki, bu başabəla spiker bir müddət – 2022-ci ilin fevralın 1-dən martın 13-dək Ermənistan prezidentinin səlahiyyətlərini də icra edib. Simonyan bu qısa dövrdə də qalmaqala imza atmağı bacarıb. O, protokola zidd olaraq fevralın 10-da prezident iqamətgahında bir neçə sənət adamı üçün dəbdəbəli ziyafət vermişdi. Qonaqlar və Simonyan süfrə arxasında söhbət etdikdən sonra musiqi sədaları altında söhbətə davam etmiş, əylənmişdilər. Görüşün bu şəkildə ictimaiyyətə təqdim edilməsi də haylar arasında etiraz dalğasının yaranmasına səbəb olmuşdu.

***

Hayastanın çoxlu problemlərinin olduğu bir zamanda ölkənin hakimiyyət qollarından birinə Simonyan kimisinin rəhbərlik etməsi xalqın üzqarasıdır. Paşinyan iqtidarın xalq üçün çalışdığını deyir, Simonyan isə onun paxırını açmaqda davam edir. Nə demək olar, davamı gəlsin...

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq:**

– Ermənistanda xalqla məmurlar arasında çox böyük uçurum var. Xalqın məmurlara inamı, demək olar ki, yoxdur. Paşinyan kadrları sırf ona sadiqlik prizması üzrə yerləşdirir. Xüsusilə, parlamentin sədri, xarici işlər, müdafiə naziri və digər mühüm postlardakı şəxslər onun yaxın adamlarıdır. Xarici QHT-lərdən, Soros Fondundan qrant alan çevrəyə daxil olanlar bu gün Ermənistanda rəhbərlikdədir.

Alen Simonyan isə parodoksal bir şəxs kimi hər zaman erməni mediasının gündəmindədir. Onun əməlləri haqqında vaxtaşırı müzakirələr açılır. Simonyanın bu gün xain, satqın adlandırılması həm də xalqa münasibətinin inikasıdır. O, bundan nəticə çıxarmaq əvəzinə, çox rahatlıqla vətəndaşın, xalqın üzünə tüpürür. Bu, həm də ictimai rəyə tüpürməkdir. Sözsüz ki, Simonyana münasibət bütövlükdə, Paşinyanın komandasına olan münasibətdir.

Ermənistan özünü demokratik dövlət adlandırır. Demokratik ölkələrdə belə hallar olanda ona yol verən şəxslər istefa verir, yaxud ciddi idarəçilik böhranı yaranır. Ancaq belə deyim var: hər bir xalq özünə uyğun lider seçir və lider də həmin xalqın simasıdır. Bugünkü Ermənistan və Paşinyan bir-birini tamamlayır. Onlar bir medalın iki üzüdür.

### Ekoaksiyanın gündəliyi



# “Ermənistanın “humanitar böhran”, “blokada” iddiaları həqiqəti əks etdirmir”

**Ermənistanın öhdəliklərindən boyun qaçıraraq, öz silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaması, yalnız humanitar məqsədlər üçün istifadə olunan Laçın yolundan ölkəmizin təbii sərvətlərini qanunsuz şəkildə daşıması, torpaqlarımızda milyondan artıq mina “əkməsi” regionda sülh və təhlükəsizliyin bərqərar edilməsinə maneə olur.**

Laçın yolu ətrafında Ermənistanın bu kimi qeyri-qanuni fəaliyyətlərinə etiraz edən Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin aksiyasına kölgə salmaq və beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə hesablanan “humanitar böhran”, “blokada” iddiaları həqiqəti əks etdirmir. Bu fikirləri Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurası (AŞ) Bakı ofisinin rəhbəri Petr Zix ilə görüşdə bildirib.

Azərbaycan ərazilərində Ermənistanın törətdiyi ekoterrora Türkiyə mediası da davamlı olaraq diqqət yetirir. Məqalələrdə Azərbaycandakı ekofəalların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, şəhid ailə üzvləri və qazilərin könüllülərlə birlikdə işğaldan azad olunmuş Qarabağ bölgəsində təbii sərvətlərin Ermənistan tərəfindən talan edilməsinə, ekoloji terror törədilməsinə etiraz məqsədilə dekabrın əvvəllərindən başlayaraq Laçın–Xankəndi yolunda fasiləsiz dinc aksiya keçirdikləri qeyd edilib. Ermənilərə “Siz 30 il işğal altında olan Azərbaycan torpaqları üçün nə etdiniz ki, indi Laçın və Xankəndinin ekoloji qətliamına qarşı çıxan QHT-lərin şərəfli mübarizəsinə etiraz edirsiniz?”, – deyə konkret sual ünvanlanır.

*(ardı 8-ci səhifədə)*

# Rusiya–İran yaxınlaşması: qlobal risklər və mənafelər

## *Yaxud Moskva–Tehran "zorən nikahı" nə vəd edir?*

**Rusiya ilə İran yaxınlaşmaqdadır. Hazırkı şəraitdə, belə demək mümkünsə, əzəli düşmənlər dosta çevrilirlər. Yaxud, ortada "zorən nikahın" da olduğunu söyləyə bilərik. Əslində, mürəkkəb situasiya yaranıb və onun təsiri, heç şübhəsiz, yaşadığımız Cənubi Qafqaz siyasi akvatoriyası baxımından da aktualdır. Nəzərə alaq ki, Azərbaycan–İran münasibətləri gərginləşməkdədir. Bəzən elə təəssürat yaranır ki, fars molla rejimi ölkəmizə qarşı hərbi əməliyyatlara başlaya bilər. Mövcud xüsusda İran-Ermənistan əlaqələrinin artan dinamikası hərəkətverici faktor rolunda çıxış etməkdədir. Onu da nəzərə alaq ki, hazırda Rusiya–Ermənistan münasibətlərində də gərginlik hökm sürməkdədir.**



Bəli, Moskva–Tehran yaxınlaşması, məhz belə bir ziddiyyətlərlə dolu durumda, maraq yaratmaqdadır. Yaxınlaşmanın nə dərəcədə səmimi olduğu məsələsi də, həmçinin. Əlbəttə, diqqətə çatdıracağımız bu təhlildə vurğu Rusiya–İran münasibətləri baxımından qlobal Qərb faktoru üzərinə qoyulub. Yəni, Cənubi Qafqaz, o cümlədən Azərbaycan seqmenti əsas götürülməyib. Bununla belə, ayrı-ayrı məqamların ölkəmizə də təsiri aktualdır.

Beləliklə, ABŞ-ın nüfuzlu beyin mərkəzlərindən olan Yaxın Şərq İnstitutu Ukraynada müharibə başlanandan bəri Rusiya və İran arasında münasibətlərin necə dəyişdiyinə dair araşdırmasını dərc edib. Bununla bağlı "haqqin.az" saytında məqalə yayımlanıb. Araşdırma müəlliflərinin fikrincə, təhlükəsizlik və müdafiə sferası Moskva ilə Tehran arasında münasibətlərdə əsas istiqamət olsa da, bir çox yeni əməkdaşlıq sahələri də var.

Maraqlıdır ki, Rusiyanın yenicə təsdiq edilmiş xarici siyasət konsepsiyasında İranla münasibətlərin gələcəyinə dair müəyyən eyhamlar yer alıb. Analitiklərin fikrincə, sənəd Kreml üçün Tehranı müsəlman dünyası ölkələri sırasında birinci yerdə qərarlaşdırır. Bu isə Moksvanın molla rejimi ilə tammiqyaslı və etibarlı əməkdaşlığının inkişafını tələb edir.

Araşdırmada qeyd edilir ki, Moskva və Tehran bir neçə cəbhədə əməkdaşlıq aparırlar. Onlar ikitərəfli ticarəti və biznesi asanlaşdırır, tranzit marşrutlarının tamamlanmasını sürətləndirirlər. Burada söhbət, həmçinin Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi və onun Xəzər komponentindən gedir. Eyni zamanda əməkdaşlığa bank sistemlərinin birləşdirilməsi, maliyyə əməliyyatlarının asanlaşdırılması da daxildir ki, bütün bunlar beynəlxalq sanksiyalardan qorunmaq və çoxtərəfli çərçivəni Qərb institutlarının təsirindən kənarda gücləndirmək məqsədi daşımaqdadır.

Bütün mümkün riskləri və xərcləri nəzərə alaraq, Moskvanı və Tehranı ikitərəfli münasibətlərin möhkəmlənməsinə sərmayə qoymağa vadar edən geniş səbəblər nədən, yaxud nələrdən ibarətdir? Təhlil müəllifləri maraqların toqquşması və rəqabət müstəvisində ölkələr arasında yeni fazaya qədəm qoymaqda olan əməkdaşlığın pozulmasının mümkünlüyünü, Qərbin əks həmlələrini diqqətə alırlar. Onların fikrincə, işbirliyinin əsasında iki avtoritar dövlətin xarici və daxili təzyiqləri dərk etməsi dayanır, aktuallıq da elə bundadır. Hər iki ölkə Qərbə, ən azı, iki səbəbə görə ümumi təhlükə kimi baxır. Birincisi, Moskva və Tehran Qərb dövlətlərinin onların beynəlxalq müstəvidə fəaliyyət azadlığını və əsas təhlükəsizlik maraqlarını qorumaq imkanlarını məhdudlaşdırdığı qənaətindədirlər. İkincisi, hər iki ölkə Qərbi dövlət hakimiyyətinə qarşı yönəlmiş daxildəki etiraz aksiyalarının dəstəkçisi qismində görür. Konkret desək, Qərbi Rusiyada və İranda rejim dəyişikliyinə çalışmaqda ittiham edirlər.

***

Bəli, Rusiya və İran arasında yaranmış "strateji simpatiya" hissi əsas birləşdirici amildir. Ancaq Tehran rejimi daxilində Moskvanın etibarlı strateji tərəfdaş kimi dəyəri və etibarı ilə bağlı fikir ayrılıqları mövcuddur. Bu təmayülün yaxın gələcəkdə aradan qalxma ehtimalı azdır. Qərb dövlətləri isə mövcud vəziyyəti bilir, ondan yararlanmağa çalışırlar və gələcəkdə də buna yönələn səylərini davam etdirəcəkləri şübhəsizdir.

Yaxın Şərq İnstitutunun ekspertləri hesab edirlər ki, Tehrandakı sərt xətt tərəfdarları üçün Moskva ilə daha sıx münasibətlərin mövcudluğu Qərbin regiona doğru yaxınlaşmasına qarşı etibarlı sığortadır. İranla Qərb arasındakı münasibətlərdə hər hansı yaxşılaşma ölkənin radikal düşərgəsi, o cümlədən, bir çox siyasi və iqtisadi maraqları olan İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) üçün itkidir. İran rejiminin mötədil praqmatik qanadı, eləcə də ölkə ictimaiyyətinin əhəmiyyətli hissəsi isə əksinə, iqtisadi əməkdaşlıq məsələlərində Rusiyanın heç də təbii müttəfiq və ya strateji tərəfdaş olmadığı qənaətindədir. Bu cinah əmindir ki, İranın beynəlxalq təcrid və iqtisadi problemləri üçün yeganə çarə ABŞ-la birbaşa danışıqlar və ən azı, 2015-ci ilin nüvə sazişinin yenilənməsidir.

Amma mövcud parçalanmalara baxmayaraq, habelə, sərt xətt tərəfdarlarının bütün vəsilələrə nəzarət etdiyini nəzərə alsaq, rejim daxilindəki balans Rusiyanın xeyrinə əyilib. Həm də ona görə ki, ölkənin ali dini rəhbəri Əli Xameneyinin nəzərində İran və Rusiya düşmən qarşısında özlərini müdafiə etmək üçün resursları birləşdirməli olan təbii müttəfiqlərə çevriliblər. Deməli, həm Rusiya, həm də İran Qərbi bir nömrəli düşmən görürlər.

Digər tərəfdən, Moskva və Tehran hesab edirlər ki, qarşılıqlı əməkdaşlığın olmaması hər iki dövlətə baha başa gələ bilər. Deməli, son dinamika həmişəkindən daha çox, ölkələri bir-birindən asılı vəziyyətə salıb. Belə düşünülür ki, Putin Rusiyasının hansısa uğursuzluğu İslam Respublikası üçün strateji itki olacaq, rejim beynəlxalq səhnədə əsas dəstəkçisini itirəcək.

Başqa bir məqam da var. Təhlilçilərin bildirdiklərinə görə, molla teokratiyası Ukraynadakı müharibəni, eləcə də Rusiyanın Qərblə dolayısı ilə qarşıdurmasını öz mövqelərini gücləndirmək fürsəti kimi görür. Əli Xameneyinin fikrincə, Tehran üzərinə düşən rolu yaxşı oynaya bilsə, o zaman Rusiyanın Ukrayna müharibəsi ilə genişlənəcək təhlükəsizlik çətiri İran üçün də yaşam təminatıdır. Təbii ki, bu halda Moskva müharibədən qalib ayrılmalıdır. Ayrılmasa...

***

Öz növbəsində, Rusiya da İran rejiminin dağılmasını istəmir. Moskva hesab edir ki, belə bir perspektiv yaşansa, Qərblə münaqişədə müttəfiqini itirəcək. Yəni, nə qədər ki, Tehranda anti-Amerika rejimi var, Kreml cənub cinahında özünü təhlükəsiz hiss edə bilər, özü də minimum xərclə.

Beləliklə, ekspertlər bildirirlər ki, Moskva ilə Tehran arasında tamhüquqlu ittifaq yaratmaq üçün heç bir rəsmi öhdəlik olmasa da, dərin dövlət səviyyəsində bəyan edilməmiş qarşılıqlı müdafiə məramı mövcuddur. Amma analitiklər Rusiya–İran strateji müttəfiqlik müqaviləsinin bağlanmasına mane olan səbəblərdən də söz açırlar. Mövcud anlamda ölkələrin enerji sektorunda maraqlarının toqquşduğunu önə çəkirlər.

Prezident Vladimir Putinin 2022-ci ilin iyulunda Tehrana səfəri zamanı Rusiyanın "Qazprom" şirkəti ilə İranın Milli Neft Şirkəti (NIOC) arasında İranın neft və qaz sektorunun modernləşdirilməsinə dair 40 milyard dollarlıq müqavilə imzalanıb. Lakin Tehranda bu razılaşmaya şübhə ilə yanaşan müəyyən qüvvələr var. Məsələn, İranın Ticarət Palatasının Enerji Komissiyasının sədri Həmid-Reza Salehi müqavilə bağlayan tərəflərin rəhbərliyini tənqid edib. O, Moskvanın İrana öz qazını Avropa bazarlarına çıxarmaq üçün lazımi infrastrukturun qurulmasında faktiki yardım edəcəyinə şübhə ilə yanaşıb.

Əslində, Tehrandakı skeptiklər rusların rejimin neft və qaz layihələrinə sırf nəzarəti ələ keçirmək üçün sərmayə qoymağı öhdəsinə götürdüklərinə inanmaqda haqlıdırlar. Çünki sözügedən müqavilə Rusiyaya İranın Avropa bazarına alternativ neft və qaz təchizatçısına çevrilməsi prosesini ləngitmək imkanı verəcək. Yaxın Şərq İnstitutunun analitikləri bildirirlər: "İran və Rusiya arasında rəqabətin aydın əlamətləri artıq görünür. Neft-qaz sənayesinin bəzi rəsmiləri hesab edirlər ki, Rusiya təhlükəsi ilə mübarizənin yeganə yolu Asiyada neft ixracı bazarlarını ələ keçirməkdir. İran Asiyada ruslara neft qiymətlərində endirimlər etməklə rəqabət aparmaq əvəzinə, Avropaya daha çox neft ixrac etməyi hədəfləməlidir".

Bəli, hazırkı durumda, ali dini rəhbər Əli Xameneyinin özünün və SEPAH-ın yüksək rəhbərliyinin təmsil olunduğu bir qrup Rusiya ilə enerji sahəsində daha sıx əlaqələrin tərəfdarıdır və onlar Tehranın skeptiklərini uzaqgörən olmamaqda ittiham edirlər. Bu cinahın fikrincə, Ukraynadakı müharibə Qərblə, o cümlədən Rusiya, Çin və İran kimi "qeyri-Qərb" ölkələri arasındakı savaşın xüsusi məqamıdır. Bu qütb, həmçinin belə qənaətdədir ki, Tehran qlobal orientasiya baxımından, daha böyük düşünməli, iqtisadi fayda taktikasını Moskva ilə dərin siyasi əlaqələrdən üstün tutmamalıdır.

Yəni, araşdırma müəllifləri bu nəticəyə gəlirlər: Əli Xameneyi üçün Rusiyanın Qərbdən uzunmüddətli uzaqlaşdırılması məhz ona görə vacibdir ki, onun fikrincə, bu, Qərbi daha da zəiflədəcək, nəticədə, İranın qeyri-Qərb dünyasındakı mövqeyi yüksələcək. Digər tərəfdən, Xameneyi hesab edir ki, Rusiyanın Qərbdən ayrılması, birbaşa olaraq, İran İslam Respublikasının anti-Amerika siyasi modeli kimi sağ qalmasına köməkdir.

Deməli, Xameneyi və SEPAH üçün Rusiyanın diplomatik dəstəklə, eləcə də milli təhlükəsizlik və hərbi sahədə fəal əməkdaşlıq vasitəsilə, kömək göstərə biləcəyi İslam Respublikasının ayaqda qalması, müvəqqəti iqtisadi faydalardan daha vacibdir. Bu cinah onu da yaxşı anlayır ki, artan təzyiqlər səbəbindən, Avropanın neft və qaz bazarlarında Rusiyanın hökmranlığı qeyri-mümkün olacaqdır.

***

Bəs Qərb Rusiya ilə İran arasında strateji yaxınlaşmanın qarşısını almaq üçün nə edə bilər? Amerikalı analitiklərin fikrincə, qısamüddətli perspektivdə ABŞ və Avropanın imkanları çox məhduddur. Qərb Rusiya və İrana sanksiyalarla təzyiq etdikcə, onlar "kollektiv cavab" platformasında inteqrasiyanı davam etdirirlər.

Ortamüddətli perspektivdə isə Qərbin Rusiya–İran oxunun genişlənməsinə qarşı çıxmaq üçün bir neçə yeni istiqaməti ola bilər. Birincisi, ABŞ bu məsələdə Çinlə əməkdaşlıq etməlidir, çünki Pekinin Moskva ilə Tehranın yaxınlaşmasından məmnun olduğuna dair ciddi şübhələr var.

İkincisi, Qərb İrana daha sərt və aydın hərbi-strateji siqnallar verməlidir. Mövcud xüsusda həlledici rolu NATO oynamalıdır. Qurum intensiv fəaliyyəti ilə Tehranın təhlükəsizlik faydalarını minimuma endirməli, onun Moskva ilə tərəfdaşlıq münasibətlərini əngəlləməlidir.

Nəhayət, üçüncüsü, ABŞ İranın nüvə məsələsində Rusiya ilə texniki əməkdaşlığını davam etdirməlidir. Nəzərə alaq ki, bu məsələ getdikcə aktuallaşır, çünki son təhlillər Moskvanın İranın nüvə proqramı ilə bağlı daha mülayim siyasi xətt yeritdiyini göstərir.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

**İran yenə məkrli simasını göstərir. Azad və çiçəklənən, eyni zamanda regionda və dünyada nüfuzu artan Azərbaycana qarşı bəd əməllərindən geri çəkilmir. Son günlər molla rejimi Azərbaycanın Təbrizdəki konsulluğu qarşısında teatrlaşdırılmış etiraz aksiyaları təşkil edir. Martın 31-də keçirilən "aksiyada" Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlamasına etiraz bildirilib. Narahatedici məqam ondan ibarətdir ki, belə "aksiyaların" təşkili sonda vəziyyətin daha qorxulu hal almasına gətirib çıxara bilər.**

# Destruktivliyindən əl çəkməyən qonşu




Azərbaycanın İsraildə səfirlik açması molla rejiminin yuxusunu ərşə çəkib. Hər gün Azərbaycanın ünvanına hədyanlar yağdıran İran rəsmiləri, rejimə qulluq edənlər indi də Təbrizdəki konsulluğumuzu hədəfə alıblar. Konsulluq önünə toplaşan "aksiyaçılar" İsraildəki səfirliyimizi dərhal bağlamağı tələb ediblər. Eyni tələbi İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənani də səsləndirib. O, Azərbaycan və İsrail xarici işlər nazirlərinin görüşündə səsləndirilən fikirlərlə bağlı "Azərbaycandan izahat tələb etdiklərini" bildirib. İranlı diplomatın çıxışı ilə eyni vaxtda bir qrup təşkil olunmuş şəxsin Azərbaycanın Təbrizdəki konsulluğu qarşısında aksiya keçirməsi bütün bunların rəsmi mənbədən idarə olunmasını təsdiqləyir.

Aydındır ki, İran rejimi belə "aksiyalar" keçirməklə Azərbaycana təzyiq etmək istəyir. Guya, əldəqayırma etiraz aksiyaları təşkil etməklə rəsmi Bakının bir çox məsələlərə haqlı mövqeyinə təsir göstərəcək. Əslində, İranın bizə qarşı fəaliyyəti yeni deyil. Müstəqillik əldə etdikdən sonra biz İranın hədəfindəyik. Azərbaycan siyasi müstəqilliyini bərpa etdikdən sonra 30 il torpaqları erməni işğal altında qalmışdı və İran bu vəziyyətdən razı idi. Ümumiyyətlə, İran Azərbaycanın güclənməsini heç vaxt istəməyib. Ölkəmizin 44 günlük müharibədə qələbə qazanması, güclənməsi və regionda nüfuzunun artması, həmçinin Türkiyə və Pakistanın verdiyi dəstək, İsraillə dostluq münasibətləri İranı qıcıqlandırır.

Molla rejimi görür ki, artıq Qafqaz regionunda nüfuzu yoxdur, ona görə də təhdidlərlə, Azərbaycanın maraqlarına zidd çıxışlar etməklə vəziyyəti öz xeyrinə dəyişmək istəyir və müxtəlif bəhanələrlə bu hərəkətlərinə haqq qazandırmaq niyyətindədir. İranın Azərbaycana qarşı yürütdüyü siyasətin bəzi təfərrüatlarını dəyişmək olar, lakin bu, onun mahiyyətinə təsir etməyəcək. Siyasi müşahidəçilərin sözlərinə görə, İran Azərbaycanın daim təhdid altında olmasını, onun maraqlarına cavab verən siyasət yürütməsini istəyir.

Regionda yaranmış yeni geosiyasi vəziyyətdə İranın yeri yoxdur və o, bununla barışmaq istəmir. İran Türkiyə və Azərbaycanın regionda artan nüfuzu fonunda ofsaydda qalması ilə barışa bilmir. O, regionun böyük dövlətləri ilə döyüşməkdən çəkindiyi üçün Azərbaycanı zəif tərəf bilərək, hədəfə götürüb. Hər vəchlə barışmadığı reallığı dəyişdirmək istəyir. Ancaq bunu bacarmayacağı gün kimi aydındır.

Xatırladaq ki, bu il yanvarın 27-də baş vermiş terror aktından sonra Azərbaycanın Tehrandakı səfirliyi qeyri-müəyyən müddətə fəaliyyətini dayandırıb. Hücum nəticəsində səfirliyin bir əməkdaşı həlak olub, ikisi isə yaralanıb. Təbrizdəki konsulluq fəaliyyətini davam etdirir. Amma belə görünür, molla rejimi vəziyyəti daha da gərginləşdirmək yolunu tutub. Mütəxəssislərin sözlərinə görə, Azərbaycanın Təbrizdəki konsulluğu qarşısında təşkil olunan "aksiyalar", əslində, təbrizlilərin istəyi ilə keçirilmir. Belə bir fikir irəli sürülür ki, həmin "aksiyaların" arxasında İranın xüsusi xidmət orqanları dayanırlar.

***S.ELAY, "Xalq qəzeti"***

# Tehran rejimi təlaş içərisində

## *Güneylilərin Azərbaycan bayrağı ilə yürüşü*



**Son aylar İranın molla rejiminin dövlətimizə qarşı artan təhdidləri, SEPAH rəhbərliyinin hədə-qorxu dolu bəyanatları ölkəmizdə olduğu kimi, Güneydəki soydaşlarımız tərəfindən də ciddi narahatlıqla qarşılanır. Müstəqil Azərbaycanın timsalında özlərinin mənəvi himayədarını görən güneylilər Tehran rejiminin anti-Azərbaycan siyasətinə qarşı bütün mümkün vasitələrlə etirazlarını bildirir, bununla həm də Bakıya dəstəklərini ifadə edirlər.**

### Təhdidlərə meydan oxuyan güneylilər

Tehranın Azərbaycana yönəlik təxribatçı siyasətinə etiraz əlaməti olaraq İranın bir neçə şəhərində, o cümlədən Təbriz, Qərbi və Şərqi Azərbaycan, Kürdüstan, Ərdəbil, Mazandaran, Xuzistan və digər əyalətlərində kütləvi aksiya və yürüşlərə start verilib. Azərbaycan bayraqları ilə meydana çıxan etirazçılar bununla fars-molla rejiminin ölkəmizlə bağlı siyasətinə etiraz etdiklərini, bu siyasəti əsla dəstəkləməyəcəklərini bəyan ediblər. Aksiyaların kütləviliyindən, yürüşlərdə dalğalanan üçrəngli bayraqlardan qorxuya düşən Tehran rejimi sərt cəza tədbirlərinə əl atmaqla, onları yürüşlərdən çəkindirməyə çalışır. Ancaq rejimin bütün təzyiqlərinə baxmayaraq, etirazlarını davam etdirən güneyli soydaşlarımız molla rejimini cəsarətlə lənətləməkdədir. Aksiyaçılar "Xameneiyə ölüm!", "Uşaq öldürən hökumətə ölüm!", "Qadın, Həyat, Azadlıq!" kimi transparant və şüarlarla həm də anti-demokratik idarə üsuluna etrirazlarını bildirir, mövcud rejimin dəyişməsini tələb edirlər. Bu zaman yüzlərlə nümayişçi həbs edilsə də, etirazlar sənqimir. Aksiya artıq polis-vətəndaş qarşıdurmasına çevrilməkdədir.

### İranı ağır zərbə gözləyir

Tehranın anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq gerçəkəşən yürüş və aksiyalar göstərir ki, İrandakı on milyonlarla soydaşımız fars-molla rejiminin müstəqil dövlətimizə yönəlik təxribatçı siyasətinə biganə deyil və bu siyasətə qarşı açıq şəkildə etiraz edir.

Güneydəki soydaşlarımız öz həyatlarını təhlükəyə ataraq Azərbaycana sevgilərini bəyan etməkdə, Tehran rejimi ilə çarpışmaqdadır. Bütün bunlar onu göstərir ki, Tehran anti-Azərbaycan siyasətini davam etdirəcəyi təqdirdə ən ciddi, ölümcül zərbəni məhz Güneydəki soydaşlarımızdan alacaq. Hazırda İranın bir çox şəhərlərində davam edən etirazlar bundan xəbər verir.

***Seymur ƏLİYEV, "Xalq qəzeti"***

# "Ermənistanın "humanitar böhran", "blokada" iddiaları həqiqəti əks etdirmir"

**(əvvəli 7-ci səhifədə)**

Azərbaycan Ermənistandan fərqli olaraq aqressivlik nümayiş etdirmir. Regionda sülhün tərəfdarı kimi addımlar atır. Sülhpərvərlik, xoşməramlılıq Azərbaycanın dövlət qurumlarında çalışan vəzifəli şəxslərinin, sıravi vətəndaşının da ruhuna hopub. Bunun ötən gün də şahidi olduq. Belə ki, Xankəndi–Laçın yolunda Qarabağda yaşayan erməni vətəndaşlarının halı pisləşib, azərbaycanlı həkimlər yardım göstəriblər. Rusiya sülhməramlılarının müraciətindən sonra əraziyə Şuşa şəhərində yerləşən modul tipli xəstəxananın təcili tibbi yardım maşını gəlib, ilkin müdaxilə edilib. Daha sonra erməni vətəndaşları təcili tibbi yardım avtomobili ilə Xankəndiyə aparılıb.

Xankəndi–Laçın yolunda halı pisləşən Qarabağ ermənilərinə tibbi yardım göstərən Şuşa modul tipli xəstəxanasının həkimi Vilad Əliyev deyib ki, ermənilərə yerindəcə ilkin tibbi yardım göstərildi. Dörd nəfərdən üçünün vəziyyəti nisbətən ağır idi. Daha sonra onları bizim nəzarətimiz altında Xankəndi xəstəxanasına sağlam şəkildə çatdırdıq. Xəstəxanaya təhvil verdikdən sonra Şuşaya qayıtdıq.

Gün ərzində ərazidən humanitar təyinatlı avtomobillərin sərbəst keçidinə şərait yaradılıb. Ümumilikdə, 100-dən çox nəqliyyat vasitəsi yoldan istifadə edə bilib. Onların sırasında beynəlxalq təşkilata aid maşınlar da keçib. Avtomobillərdə erməni ailələri və uşaqları da olub.

***Rizvan FİKRƏTOĞLU, "Xalq qəzeti"***

# Türk dövlətlərinin sadələşdirilmiş gömrük dəhlizi yaradılır

**Milli Məclisin 4 aprel 2023-cü il plenar iclasında "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanmış saziş təsdiq olunub. Dəhliz tərəflər arasında daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsi etmək, onların gömrük prosedurlarının mümkün qədər asanlaşdırmaq məqsədi daşıyan, könüllülük əsasında və bütün nəqliyyat növlərində istifadə edilə bilən elektron sistemi nəzərdə tutur.**



Saziş qüvvəyə mindikdən sonra tərəflərin gömrük orqanlarının razılığı əsasında 6 aylıq pilot layihə icra olunacaq. Bu layihə dəhlizin reallaşdırılmasını şərtləndirəcək.

Türk Dövlətləri Təşkilatı (TDT) hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti haqqında məlumat mübadiləsini asanlaşdırmaq məqsədilə təsdiqlənən saziş türk dövlətləri arasında ticarət əlaqələrinin inkişafı istiqamətində daha bir önəmli addım hesab olunur. Belə bir layihə sayəsində təşkilata üzv hökumətlər arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi nəzərdə tutulur.

Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə görə, son illər türk dövlətləri arasında iqtisadi əlaqələrin sürətli inkişafı və ticarət dövriyyəsində kəskin artımlar müşahidə olunur. Təkcə ötən il Azərbaycan ilə türk dövlətləri arasında ticarət dövriyyəsinin əvvəlki illə müqayisədə 70 faiz artaraq 5 milyard 23 milyon dollardan 7 milyard 170 milyon dolları dək yüksəlməsi faktı da bunun bariz ifadəsidir.

Deputatın bildirdiyinə görə, ötən il Azərbaycanın bütün türk dövlətləri ilə ticarət dövriyyəsində artım qeydə alınıb. Qazaxıstan ilə dövriyyə ötən il əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135 milyon 799 min dollardan 598 milyon 486 min dolları dək yüksəlib. Türkmənistan ilə həmin göstərici üzrə 5,1 dəfə artım qeydə alınıb və 105 milyon 23 min dollardan 535 milyon 397 min dollara çatıb. Özbəkistan ilə ticarətdəki 64 faizlik artım birgə dövriyyənin 111 milyon 903 min dollardan 2022-ci ildə 183 milyon 307 min dolları dək artırıb. Mərkəzi Asiyanın digər türk dövləti olan Qırğızıstan ilə də ticarət dövriyyəsində artım qeydə alınıb. İki dövlət arasındakı dövriyyə ötən il 17 faiz artaraq 9 milyon 18 min dollardan 2022-ci ildə 10 milyon 809 min dolları dək yüksəlib. Qardaş Türkiyə ilə dövriyyə isə ötən il 6 milyard dollara yaxınlaşıb.

Ticarət dövriyyəsinin böyüməsi birbaşa türk dövlətləri arasındakı münasibətlərin son 2 ildə dərinləşməsi ilə bağlıdır. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi zəfərdən sonra türk dövlətləri strateji əməkdaşlığı daha da gücləndiriblər. Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsinin yaxın illərdə 15 milyard dolları dək yüksəlməsi proqnozlaşdırılır.

Xatırladaq ki, türk ölkələrinin dövlət başçılarının 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə görüşündə türkdilli dövlətlərin xalqları arasındakı tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq, hərtərəfli əməkdaşlığın dərinləşməsinə səy göstərərək, "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi" imzalanıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması üzrə razılığa gəlinib.

Türk Dövlətləri Təşkilatının Baş katibi qazaxıstanlı Bağdad Amreyevdir. Təşkilatın katibliyi İstanbulda yerləşir. Ötən il Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı olub və səmərəli beynəlxalq təşkilata çevrilib. Bu, təkcə ad dəyişikliyi deyil, həm də yeni baxışın və yeni inkişaf vektorunun göstəricisidir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

## *Ekspert rəyi*

**Ayhan SATICI,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmaları Mərkəzinin rəhbəri:**



– "Türk Dövlətləri Təşkilatı hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" və "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" sazişlərin təsdiq edilməsi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu olan Orta Dəhlizin də praktiki əhəmiyyətini artırır. Regionda baş verən yeni geosiyasi və geoiqtisadi reallıqlar çərçivəsində, 2020–2021-ci illərdə Orta Dəhliz üzrə yük daşımaları 350 min tondan 530 min tona qədər artıb. Gömrük dəhlizinin yaradılması isə Türk Dövlətləri Təşkilatı (TDT) ölkələri arasında sürətli yük daşımalarına, o cümlədən yük daşımaların həcmində nəzərəçarpacaq dərəcədə artıma gətirib çıxaracaq.

TDT hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımalarının icra edilməsi regionda nəqliyyat əməliyyatlarını asanlaşdırmaq üçün mühüm addımdır. Təşkilat ölkələri arasında yük daşımaları prosedurlarının asanlaşdırılması ilə yanaşı, Orta Dəhliz boyunca əməkdaşlığın inkişafına, nəqliyyat, sərhəd və gömrük prosedurlarının rəqəmsallaşdırılmasına səbəb olacaq. Bu da, öz növbəsində, TDT ölkələri arasında, həmçinin marşrut boyunca tranzit potensialının artmasına və bu prosesdə iştirak edəcək ölkələrin regional və beynəlxalq nəqliyyat sistemlərinə inteqrasiya etməsinə töhfə verəcək.

Azərbaycanın bu proseslərdə fəal şəkildə iştirak etməsini yalnız qəbul edilən qanun layihələri ilə deyil, Zəngəzur Dəhlizi boyunca sürətlə aparılan işlərlə də müşahidə etmək mümkündür. Çünki Zəngəzur Dəhlizi də Orta Dəhliz üzrə Cənubi Qafqazdan keçən marşrutun diversifikasiyasına və türk dövlətləri arasında coğrafi baxımdan bağlantısına xidmət edir.

TDT ölkələri arasında Telekommunikasiya İnfrastruktur İndeksi (TİI) və İnsan Kapitalı İndeksi (HCİ) üzrə göstəricilər kifayət qədər yüksəkdir. Bu kimi sahələrdə yüksək göstəricilərə malik ölkələrdə elektron məlumat mübadiləsi, gömrük prosedurlarının asanlaşdırılması, elektron ticarət qovşaqlarının yaradılması, xidmət və investisiya sektorları üzrə azad ticarət razılaşmalarının əldə edilməsi və ümumilikdə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi daha məqsədəuyğun hesab olunur.

**Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" (AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanmasından 5 il yarım vaxt ötür. "Yeni əsrin müqaviləsi" adlandırılan həmin sazişlə AÇG yataqlar blokunun işlənməsi 2049-cu ilədək uzadılıb. Artıq "Yeni əsrin müqaviləsi" çərçivəsində tikinti-quraşdırma işləri finişə yaxınlaşır.**

# "Yeni əsrin müqaviləsi" üzrə hazırlıq işləri yekunlaşır



Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bayıl tikinti-quraşdırma sahəsində "Azəri–Mərkəzi–Şərqi" (ACE) platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib. Burada dövlət başçısına layihə çərçivəsində görülmüş ümumi işlər, o cümlədən ACE platformasının üst modullarının texniki imkanaları barədə ətraflı məlumat verilib.

Xatırladaq ki, "Yeni əsrin müqaviləsi" 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan hökumətinin, SOCAR-ın, BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətlərinin rəsmiləri tərəfindən Bakıda imzalanıb. Həmin il oktyabrın 31-də saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunub. Bununla da, "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun işlənilməsində yeni dövr başlanıb.

Saziş qüvvəyə mindikdən dərhal sonra SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin irəli aparılması haqqında razılaşma əldə edilib. ACE layihəsi üzrə yekun investisiya qərarı isə 2019-cu ilin aprel ayında qəbul olunub.

Yeri gəlmişkən, "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun işlənməsinin növbəti, həlledici mərhələsi olan "Azəri Mərkəzi Şərqi" (ACE) adlandırılan layihənin ümumi dəyəri 6 milyard dollar təşkil edir. Layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. İstismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

ACE layihəsi dənizin, təxminən, 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platformasının quraşdırılmasını əhatə edir. Layihəyə, həmçinin yataqdaxili yeni sualtı boru kəmərlərinin, eləcə də laya vurulan suların nəqli məqsədilə suvurma boru xəttinin tikintisi daxildir.

ACE platforması Səngəçal terminalından, yəni, uzaq məsafədən idarə ediləcək. Bunun üçün platformanın idarə mexanizminə innovativ sistem avtomatlaşdırmaları daxil edilib və Səngəçal terminalında yeni ACE idarəetmə mərkəzi inşa edilib. Bu, həm də BP şirkətinin dünyada ilk dəfə tətbiq etdiyi uzaq məsafədən idarə olunan platformasıdır.

Layihə çərçivəsində tikinti işlərinə 2019-cu ilin sonlarında başlanıb. Əsas tikinti-quraşdırma işləri Bakı Dərin Özüllər Zavodunda və Bayılda yerləşən tikinti-quraşdırma sahəsində həyata keçirilib. ACE platformasının dayaq bloku "BOS Shelf" şirkəti tərəfindən inşa edilib. Dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü isə 153 metrdir. Bu qurğuya suvurma, neft və qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir. Sözügedən qurğunun dənizə yola salınması prosesinə 2022-ci il dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun tikinti sahəsində start verilib. Bütün istismar sınaqlarından sonra dayaq bloku bu il martın 16-da dənizə yola salınıb. Artıq blok suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılıb.

ACE platformasının üst modullarına isə neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. "Azfen" şirkəti tərəfindən inşa edilmiş modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur. Layihə çərçivəsində nəzərdə tutulmuş neft, qaz, və suvurma ixrac boru kəmərlərinin quraşdırılması da artıq başa çatdırılıb. Xatırladaq ki, dənizin dibi ilə çəkilmiş 6 və 12 kilometrlik kəmərlər mövcud AÇG sualtı ixrac boru kəmərləri ilə birləşdiriləcək.

Bütövlükdə isə, tikinti işlərinin və istismar sınaqlarının bu ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənərək dənizə göndəriləcək və dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra ACE platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

## *Ekspert rəyi*



**Elman İSKƏNDƏROV,**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti neft-qaz-mədən fakültəsinin dekanı, texnika elmləri doktoru, professor:**

– Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyası Azərbaycanı dünyanın enerji təhlükəsizliyinə töhfə verən ölkəsinə çevirib. Bu tarixi uğurun təməli isə 1994-cü ildə Bakıda dünyanın müxtəlif ölkələrini təmsil edən aparıcı neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" ilə qoyulub.

XX əsrin nəhəng neft sazişi müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün son dərəcə mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, müstəqil iqtisadi siyasət yeridən ölkəmiz özünün yeraltı və yerüstü sərvətlərinin əsl sahibi olduğunu bütün dünyaya bəyan etdi. Bununla yanaşı, ulu öndər Heydər Əliyev dünyanın aparıcı neft şirkətlərini gənc suveren Azərbaycan Respublikasında siyasi sabitliyin və əlverişli investisiya mühitinin mövcudluğuna inandırmağı bacardı.

"Əsrin müqaviləsi" istər karbohidrogen ehtiyatlarının miqdarına, istərsə də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlərdən biri idi. Onun uğurla reallaşdırılması isə, öz növbəsində, ölkəmizə xarici investisiya axınını xeyli sürətləndirdi. Bunun nəticəsi olaraq sonralar ölkəmizin neft-qaz ehtiyatlarının xarici şirkətlərlə birgə işlənilməsinə dair yeni sazişlərə imza atıldı. "Şahdəniz" yatağı isə Azərbaycanı dünyanın potensial qaz ixrac edən ölkəsinə çevirdi. Ötən müddətdə ölkəmizin neft və qazın satışından əldə etdiyi gəlirlərin məbləği kəskin artdı.

Məlum olduğu kimi, müqavilənin əhatə etdiyi "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun zənginliyi 2017-ci ildə Azərbaycana daha bir strateji layihəyə imza atmağa imkan yaratdı. "Yeni əsrin müqaviləsi" adlandırılan saziş çərçivəsində Azərbaycan iqtisadiyyatına 40 milyard dollar investisiya qoyulacaq. Bu, neft sektorunun inkişafı baxımından vacib olmaqla yanaşı, neft sektoruna yardımçı sahələrin inkişafını stimullaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda "Yeni əsrin müqaviləsi" ölkəmiz üçün daha əlverişlidir. Belə ki, Azərbaycanın yeni neft strategiyasının şanlı səhifəsi sayılan "Əsrin müqaviləsi"nin davamı olan bu saziş ölkəmizin maraqlarını tam təmin edir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Ən əsası isə, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bundan əlavə, beynəlxalq tərəfdaş şirkətlər tərəfindən Azərbaycan Respublikasının Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəniləcək. Beləliklə, ölkəmizin ümumi mənfəət göstəricisi 89,1 faizə yüksələcək. Bütün bu qazanılan nailiyyətlər onu göstərir ki, ulu öndər Heydər Əliyevin neft strategiyası uğurla icra edilir.



# ABŞ Azərbaycana 18 milyard dollardan çox investisiya yatırıb

**İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ABŞ-nin ticarət katibinin qlobal bazarlar üzrə köməkçisi Arun Venkataramanla görüşündə indiyə qədər ölkəsinin Azərbaycan iqtisadiyyatına 18 milyard dollardan çox investisiya yatırdığını bildirib.**

Görüşdə iki ölkənin enerji diversifikasiyası, texnologiyaların transferi, logistika, "yaşıl enerji" və rəqəmsal iqtisadiyyat sahələri üzrə əməkdaşlıq istiqamətləri müzakirə edilib, ABŞ-la iqtisadi-ticarət tərəfdaşlığının inkişafı vurğulanıb. Eyni zamanda, iki ölkənin biznes dairələrinin iştirakı ilə ticarət missiyalarının və işgüzar görüşlərin keçirilməsinin iqtisadi əlaqələrin şaxələndirilməsinə stimul verdiyi bildirilib.

Elnur Əliyev Bakıda ABŞ–Azərbaycan "Yaşıl enerji" Forumunun təşkilinin iki ölkə arasında investisiya qoyuluşlarının həcminin artırılması, bərpa olunan enerj sahəsində ABŞ təcrübəsinin tətbiqi baxımından əhəmiyyətinə toxunub, respublikamızın bu sahədə artıq dünyanın aparıcı şirkətləri ilə uğurlu əməkdaşlıq nümunələrinin olduğunu diqqətə çatdırıb.

***"Xalq qəzeti"***

# "Azərenerji" qeyri-neft sektorunda böyük ixracatçıdır

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nın mart sayına əsasən, 2023-cü ilin yanvar-fevral aylarında Azərbaycanın ümumi ixracı 4,5 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə isə ixrac 651,4 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin iki ayı ilə müqayisədə 36,6 faiz artıb.**

Cari ilin yanvar–fevral ayları ərzində Türkiyəyə 273,9 milyon ABŞ dolları, Rusiya Federasiyasına 137,7 milyon ABŞ dolları, Gürcüstana 64,7 milyon ABŞ dolları, Qazaxıstana 19,4 milyon ABŞ dolları və İsveçrə Konfederasiyasına isə 19 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.




2023-cü ilin fevral ayının qeyri-neft ixracı 366,9 milyon ABŞ dolları təşkil edib. Hesabat ilinin fevral ayı ərzində yeyinti məhsulları üzrə ixrac 53,4 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 313,5 milyon ABŞ dollar səviyyəsinə yüksəlib.

Bu ilin fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (167,2 milyon ABŞ dolları) birinci yerdə qərarlaşıb. Bu siyahıda Rusiya Federasiyası (69,6 milyon ABŞ dolları) ikinci və Gürcüstan isə (40,3 milyon ABŞ dolları) üçüncü sırada yer tutub.

"İxrac İcmalı"nda göstərilib ki, 2023-cü ilin mart ayında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 17,5 milyon ABŞ dolları olub.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir.

***"Xalq qəzeti"***

# Türkiyə meqalayihələrin icrasını davam etdirir

**Bu il fevralın 6-da Türkiyədə baş verən ağır zəlzələyə baxmayaraq, qardaş ölkədə iri infrastruktur layihələrinin icrası uğurla davam etdirilir. Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Qaraosmanoğlu dünən "Anadolu" agentliyinə müsahibəsində bir çox meqalayihələr barədə açıqlamalar verib.**



Nazir bildirib ki, Ankara–Sivas yüksək sürətli dəmiryol yolu, Ziqana tuneli, İstanbul və Ankara metrolarında əlavə xətlər və s. iri layihələr yaxın həftələr ərzində istifadəyə veriləcək. Qeyd edək ki, bu il oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 ili tamam olur. Bu əlamətdar hadisə ərəfəsində ölkədə çox saylı yeni obyektlərin təntənəli açılış mərasimləri planlaşdırılıb.

Nazir bununla bərabər qeyd edib ki, Türkiyə hökuməti iri infrastruktur layihələrinin icrasını davam etdirməklə yanaşı, Kahramanmaraşda və ətraf bölgələrdə dəhşətli zəlzələnini ağır yaralarını sağaltmaq üçün əlindən gələni edir. "Bu istiqamətdə işlər nəinki yavaşıyacaq, əksinə, sürətlənəcək və bərpa templəri daha da yüksələcək", – deyə nazir vurğulayıb.

İndi də yuxarıda adlarını çəkdiyimiz layihələr barədə qısa məlumat verək. Beləliklə, ölkə paytaxtını Sivas şəhəri birləşdirən Ankara–Sivas sürət qatarının saatda 250 kilometr yol qət edəcək. Qatarın qət edəcəyi məsafə mövcud avtomobil yolundan xeyli qısadır. Sərnişinlər yola iki dəfəyə yaxın az vaxt sərf edəcəklər.

Layihə üzrə Elmadaq, Kırıkkale, Erkey, Yozqat, Sorqun, Akdaqmadeni, Yılıdızeli və Sivas sonuncu olmaqla, səkkiz stansiya fəaliyyət göstərəcək. Kırıkkale, Yozqat və Sivas vilayətlərində yaşayan 1,4 milyon sakin sürət qatarından tezliklə istifadə edə biləcəklər. İnşaat işlərində yalnız Türkiyə istehsalı olan dəmir relslərdən istifadə olunur.

Bu günlərdə İstanbul metrosunda Başakşehir–Kayaşehir yeni metro xəttinin tikintisi davam edir. Uzunluğu 6,2 kilometr olan xətdə Onurkent, Başakşehir Çam, Sakura və Kayaşehir adlı dörd stansiya olacaq. Metroda qatarlar saatda 80 kilometr sürətlə hərəkət edəcək və bu istiqamətdə bir saat ərzində 70 minə yaxın sərnişin daşınacaq.

Ziqana tuneli layihəsi də mühüm infrastruktur layihələrindəndir. Türkiyənin şərqində inşa edilən bu tunelin tezliklə istifadəyə verilməsi ilə nəqiliyyat vasitələrinin daha sürətli, keyfiyyətli və təhlükəsiz hərəkəti təmin ediləcək.

Məlumat üçün bildirək ki, Qara dəniz sahilindəki böyük iqtisadi mərkəzlərdən biri olan Trabzonu Bayburt, Aşkale və Ərzurum şəhərləri ilə birləşdirən yolda inşa edilən tunelin uzunluğu dalan yollarla birlikdə 15,1 kilometrdir. Tunel "Böyü ipək yolu" layihəsinin tərkib hissəsidir.

Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Qaraosmanoğlu sonra bildirib ki, tuneldə modern ventilyasıya sistemləri quraşdırılıb. Onun sözlərinə görə, ikitərəfli hərəkəti təmin edən Ziqana tuneli uzunluğuna görə Türkiyədə birinci, Avropada üçüncüdür. Belə bir faktı da qeyd etməyə dəyər ki, tunel yolu 8 kilometr qısaldır. Yuxarıda qeyd etdik ki, yaxın aylar ərzində İstanbul metrosunda yeni xətlər istifadəyə veriləcək. Ankara metrosunda da hazırda təzə metro stansiyaları sürətlə inşa edilir. Təkcə burada deyil, ölkənin bir çox digər böyük şəhərlərində metro tikintisi genişlənir.

Sonda xatırladaq ki, haqqında bəhs etdiyimiz layihələr əsasən nəqliyyat sahəsini əhatə edir. Son illər qardaş ölkədə başqa sahələrdə, eləcə də tekstil, yüngül və emal sənayesi, inşaat, kənd təsərrüfatı istiqamətlərində də nəzərəçarpan uğurlar əldə olunub.

Türkiyə son illər müdafiə sənayesi məhsulları istehsalında, xüsusilə, pilotsuz uçuş aparatlarının hazırlanmasında, modern texnologiyaların tətbiqində böyük nailiyyətlər qazanıb. Əlbəttə, ölkə iqtisadiyyatında müəyyən çətinliklər də var. Son vaxtlar milli valyuta dollar qarşısında xeyli dəyər itirib, inflyasiya yüksəlib. Lakin Türkiyə dövləti və xalqı ən böyük problemləri həll etməyə qadirdir! Allah Türkiyəni və türk xalqını qorusun!

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

# Tramp məhkəmədə özünü təqsirli bilməyib

**ABŞ-ın sabiq prezidenti Donald Tramp Manhettendə ştat məhkəməsində 2016-cı il prezident seçkisində qalib gəlməzdən qısa müddət əvvəl pornoulduz Stormi Danielsə 10 il əvvəl aralarındakı romantik görüşlə bağlı "səssiz qalması üçün" edilən 130 min dollarlıq ödənişlə əlaqədar 38 ittiham üzrə mühakimə olunub. Bu barədə "Amerikanın səsi" radiosu məlumat yayıb.**



Qeyd edək ki, sözügedən iddianı S.Daniels qaldırıb. D.Tramp bütün maddələr üzrə təqsirli olmadığını bildirib. Birləşmiş Ştatların tarixində ilk dəfədir ki, vəzidəfə olan və ya keçmiş prezidentə qarşı ittiham qaldırılır.

Yerli mətbuat yazır ki, D.Tramp S.Danielslə bir gecəlik münasibətinin olduğunu inkar etsə də, bir zamanlar vəkili olan Maykl Kohenin Danielsə ödəniş etdiyini və Kohenə edilən kompensiyasiya ödənişlərinin sabiq dövlət başçısına məxsus təşkilatın hesablarında hüquqi xərc kimi qeydə alındığını inkar etməyib. Təqsirləndirilən şəxs ödənişin onun yeddi il əvvəl apardığı seçki kampaniyası ilə bağlı olduğunu iddia edib.

Xatırladaq ki, 76 yaşlı D.Tramp prezident seçilməzdən qabaq özünün daşınmaz əmlak üzrə nəhəng biznes imperiyasına başçılıq edirdi. İndi isə o, ilk dəfə olaraq təqsirli şəxs qismində məhkəmə qarşısına çıxarılıb. ABŞ-da keçirilən son rəy sorğuları D.Trampın 2024-cü il prezidentliyə respublikaçı namizədlər arasında birinci yerdə olduğunu göstərir. Bununla bərabər, əksər amerikalılar D.Tramla bağlı kəskin fikir ayrılığına malikdirlər. Əhalinin bir qismi ondan razılıq edir, başqa bir kəsim isə ciddi narazıdır.

Məhkəmədən öncə ittiham aktı gizli saxlanılırdı. Belə ki, D.Trampa qarşı irəli sürülən ittihamlar və dəlillər geniş ictimaiyyətə açıqlanmırdı. O, məhkəmədən əvvəl hər bir təqsirləndirilən şəxs kimi nəzarətə alınıb və onun barmaq izləri alınıb. Ancaq rəsmilərin dediyinə görə, keçmiş prezident olduğu üçün, onun qolları qandallanmayıb və fotoqroflar önündən keçməyib.

Manhettendəki məhkəmədən sonra Donald Tramp Florida ştatına yola düşüb. Ştatın Palm-Biçdəki iqamətgahında çıxış edən respublikaçının sözlərinə görə, onun ölkəsində seçkilərə müdaxilə indi görünməmiş miqyasda baş verir. "Bu, Corc Sorosun dəstəklədiyi prokuror Alvin Bragg ilə başlayır. O, prezident Trampı zəiflətmək üçün kampaniya qurmuşdur", – deyə Tramp bildirib.

*M.HACIXANLI,*
*"Xalq qəzeti"*

# Bayden Böyük Britaniyaya gedir

**ABŞ Prezidenti Cozef Bayden aprelin 11-dən 14-dək Böyük Britaniya və İrlandiyada səfərdə olacaq. Bu barədə Ağ evin mətbuat xidmətindən məlumat verilib. Məlumatı TASS yayıb.**



Məlumata görə, dövlət başçısı aprelin 11-də Belfast sülh müqaviləsinin imzalanmasının 25 illiyi münasibətilə keçirilən mərasimdə iştirak edəcək. O, bununla Birləşmiş Ştatların Şimali İrlandiyanın iqtisadi potensialına dəstəyini nümayiş etdirəcək.

Cozef Bayden növbəti gün İrlandiyaya gedəcək. Burada qlobal problemlər üzrə bütün sahələrdə iki ölkə arasında əməkdaşlıq məsələləri müzakirə olunacaq. ABŞ Prezidenti, həmçinin Dublində, Laut və Meyo qraflıqlarında keçiriləcək tədbirlərə qatılacaq və aprelin 14-də Vaşinqtona qayıdacaq.

Məlumata əsasən, Cozef Baydeni Şimali İrlandiyaya Böyük Britaniyanın Baş naziri Rişi Sunak dəvət edib.

*"Xalq qəzeti"*

# Avropa şirkətləri tankerlərini satır

**Bir çox Avropa şirkətləri maddi itkilərinin yerini doldurmaq məqsədilə tankerlərini satır, naməlum alıcılar isə yeni marşrutlar üzrə Rusiya yanacağını daşımaq üçün gəmilər almaqla davam edirlər.**

"Euronews" agentliyi yazır ki, son bir ay ərzində 54 gəmi satılıb. Buna baxmayaraq, yalnız 12 halda alıcılar məlumdur. Xəbərdə qeyd olunur ki, bir neçə gün əvvəl Almaniyanın "German Tanker Shipping" gəmiçilik şirkəti bir dəfəyə rekord qiymətə 2 tanker satıb.

Yeri gəlmişkən, gəmilərin hər biri 15 milyon dollara satılıb. Naməlum alıcılara satılan gəmilər Rusiyanın Baltikyanı limanlarından neft məhsullarının daşınması üçün yararlıdır.

Yeri gəlmişkən, "GTS"-in icraçı tərəfdaşı Frank Janqman bildirib ki, şirkət Rusiyadan neft məhsullarının nəqlindən imtina etməli olub. Ticarət sanksiyalarının təsir təhlükəsi, o cümlədən qiymət tavanı şirkəti Rusiya bazarını tərk etməyə məcbur edib.

Mütəxəssislərin fikrincə, ola bilər ki, almaniyalı gəmi sahibi Rusiya neft məhsullarının daşınmasını dayandırıb, lakin Rusiya limanları vasitəsilə işləməyə davam edib. Bunu naviqasiya portallarının məlumatları sübut edir.

*"Xalq qəzeti"*



# AP-nin deputatı narkotikdən istifadə edərkən tutulub

**Avropa Parlamentinin deputatı ictimai yerdə narkotik vasitə olan kokaindən istifadə edərkən tutulub. Bu barədə "Twitter"də məlumat yayıldıqdan sonra istifadəçilər onu ittiham ediblər. Bununla bağlı müxtəlif dillərdə paylaşımlar edilib. Məlumatı "Euronews" verib.**

İstifadəçilərdən biri ingilis dilində yazıb: "Avropa Parlamenti üzvünün iclas zamanı kokaindən istifadə etdiyini görmək təəccüblüdür".

Bununla bağlı videomaterialdan aydın görünür ki, bir nəfər əlindəki hansısa şeyi iyləyir.

Diqqətli araşdırma nəticəsində bu şəxsin Yens Mayer olduğu müəyyənləşib. O, keçmiş hakimdir, alman siyasətçisidir, sırf sağçı populist partiya olan "Almaniya üçün alternativ"in üzvüdür. 2017-ci ildə Saksoniyadan Almaniya Bundestaqına seçilib. 2021-ci ildə isə seçkidə uğur qazana bilməyib.

*"Xalq qəzeti"*

**Dünən Ukraynada hərbi vəziyyət gərgin olaraq qalıb. Rusiya Müdafiə Nazirliyinin verdiyi məlumata görə, Ukrayna ordusunun Donetskin Seversk rayonu istiqamətində hücumunun qarşısı alınıb. "İnterfaks.ru" bildirir ki, bu istiqamətdə Rusiyanın "Cənub" qoşun birləşməsinin hava və artilleriya zərbələri ilə Ukraynaya məxsus iki zirehli maşın, bir tank, dörd nəqliyyat vasitəsi və digər texnikalar sıradan çıxarılıb, 80 hərbçi məhv edilib.**

# Ukraynada döyüşlər səngimir



Ukrayna tərəfinin məlumatında isə bildirilir ki, ölkənin Silahlı Qüvvələri Donetsk vilayətinin Avdeyevka şəhəri yaxınlığında uğurlu əks-hücum həyata keçirib və Avdeyevkanın 17 kilometrliyində, Novoselovkanın şimal-qərbindəki mövqeləri geri alıb. Məlumatı ABŞ-ın Müharibənin Öyrənilməsi İnstitutu da təsdiq edib. Rusiyanın Baxmut istiqamətində hücumları da davam edir.

UNİAN-ın məlumatına görə, Rusiya qüvvələrinin atəşləri nəticəsində dünən 4 ukraynalı dinc sakin həlak olub, 14 nəfər yaralanıb. Ukrayna Müdafiə Nazirliyindən bildirilib ki, ölkənin 8 vilayəti atəşə məruz qalıb. Rəqib tərəf qumbaraatanlardan, minaatanlardan, tankdan, artilleriyadan, plotsuz aparatlardan, taktiki aviasiyadan istifadə edib. Ümumilikdə, 92 yaşayış məntəqəsi atəşə tutulub, 75 infrastruktur obyekti dağıdılıb.

Ukrayna Prezidenti Volodimir Zelenski isə dünən Varşavada səfərdə olub. Burada o, Polşanın qədim və ali ordeni olan "Ağ Qartal"la təltif edilib. Ordeni Zelenskiyə Polşa Prezidenti Anjey Duda Varşava Kral Qalasında keçirilmiş rəsmi görüşdə təqdim edib. Polşa lideri deyib ki, Zelenski Polşa və Ukrayna arasında münasibətlərin dərinləşdirilməsindəki xidmətlərinə, insan hüquqlarının müdafiəsi, təhlükəsizlik və davamlılıq sahəsində fəaliyyətinə görə mükafatlandırılıb.

Ukrayna Prezidenti ofisinin rəhbəri Mixail Podolyak isə "Azadlıq" radiosuna müsahibəsində bildirib ki, ölkəsi Rusiya ilə sülh danışıqları masasına yalnız rus qoşunlarının diplomatik yolla Krımdan çıxmasından sonra otura bilər. Onun sözlərinə görə, Rusiya ordusu Ukraynadan çıxdıqdan sonra qarşılıqlı təhlükəsizlik təminatı haqqında danışmaq mümkündür.

Dünən, eyni zamanda sabiq dövlət katibi Mayk Pompeonun başçılığı ilə ABŞ-ın siyasətçilərdən, biznes və xeyriyyə təşkilatları təmsilçilərindən ibarət nümayəndə heyəti Ukraynada olub. Onların əsas məqsədi bərpa və ölkənin gələcək inkişafı məsələlərini müzakirə etməkdir. Son məlumatlara görə, ABŞ-ın Ukraynaya növbəti hərbi yardım tranşı 2,6 milyard dollar təşkil edəcək.

Dünən Çinə səfər edən Fransa Prezidenti E.Makron da Ukraynada sülh yaradılmasını müzakirə edib.

*Paşa ƏMİRCANOV,*
*"Xalq qəzeti"*

## Ekspert rəyi



**Tural İSMAYILOV, politoloq:**

– Hazırda Rusiyanın aqressiv hücumları qarşısında Ukraynanın müdafiə qabiliyyətinin gücləndiyi müşahidə edilir. Ukrayna ölkəyə qarşı aramsız hücumlar fonunda özünün silah-sursat arsenalını da zənginləşdirir. Özəlliklə Qərbin və NATO-nun Kiyevə ciddi dəstək verdiyini görürük.

Son vaxtlar kiçik Baxmut qəsəbəsi ətrafında Rusiya ordusunun hələ də hansısa uğur əldə edə bilməməsi Ukraynanın məhz müdafiə qabiliyyətinin daha da gücləndiyini söyləməyə əsas verir.

Eyni zamanda Ukraynada bir tendensiya kimi diqqəti cəlb edən xalq–hakimiyyət birliyi, həmçinin ölkə əhalisinin tamamilə Prezident Volodimir Zelenski və komandasının ətrafında tək yumruq kimi olmasıdır ki, bu da işğala və qəsbkarlığa qarşı mübarizədə Ukraynanın necə mükəmməl bir örnək yaratdığını göstərir. Bununla bərabər hesab edirəm ki, Ukrayna bu gün 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanda hökm sürən xalq–iqtidar birliyinin nümunələrini özündə əks etdirir.

Məhz Azərbaycan nümunə götürülərək, bu gün Ukraynada da daxili islahatlar baxımından önəmli işlər həyata keçirilir. Yəni, Ukrayna bu gün bütün dağıntılar, fəlakətlər, işğal və qəsblərə rəğmən ayaq üstündədir, ölkəyə qarşı həyata keçirilən bir çox proseslərdə kifayət qədər güclü müqavimət formalaşdıra bilib.

Eyni zamanda Ukraynanın yaz aylarında əks-hücum əməliyyatlarına başlayacağı ilə bağlı qənaətlər mövcuddur. Hesab edirəm ki, Ukrayna Rusiyanın Baxmut ətrafında uzun müddət davam edən passivlik və uğursuzluğundan istifadə edərək, çevik əks-hücum həmlələri həyata keçirə biləcək. Odur ki, hazırda Ukrayna ordusunda uğurlu əks-hücum əməliyyatları üçün ciddi hazırlıq getdiyini zənn edirəm.

Bütün bunlarla yanaşı, Ukraynanın Rusiya ilə müharibənin dayandırılması üçün konkret tələbləri var. Ölkə öz ərazilərində qanunsuz işğalçı birləşmələrin olmasını əsla qəbul etmir və hesab edirəm ki, Rusiya tərəfindən irəli sürülən sülh təkliflərinə və uzadılan sülh əlinə Ukraynanın yeganə cavabı sabit qalacaq: bu da Rusiyanın işğalçı qüvvələrinin dərhal ölkə ərazisini tərk etməsidir.

# Rusiya və ABŞ hibrid müharibə orbitində

**Rusiya və ABŞ münaqişənin qaynar fazasına daxil olublar. Belə bir bəyanatla Rusiyanın xarici işlər nazirinin müavini Sergey Ryabkov çıxış edib. Məlumatı "İnterfaks.ru" verib.**



Ryabkov deyib ki, ABŞ Rusiyaya qarşı ən müxtəlif istiqamətlər üzrə hibrid müharibəyə cəlb olunub və bu müharibənin bəzi formaları əvvəllər tarixdə olmamış analoqsuz xarakter daşıyır.

Nazir müavini nüvə müharibəsi barədəki söhbətlərə də aydınlıq gətirərək deyib ki, Rusiya bu müharibədə qalibin olmayacağını dəfələrlə bildirib, ona görə də buna yol vermək olmaz. Onun sözlərinə görə, ABŞ heç nəyi nəzərə almadan eskalasiyanı davam etdirir, onlar Rusiyanı strateji məğlubiyyətə uğrada biləcəkləri inamından kor olublar. Diplomat Vaşinqtonun, sözün həqiqi mənasında, odla oynadığını qeyd edib.

Ryabkov deyib ki, Rusiyanın hər cür tədbir görməkdə qətiyyətli olduğunu və öz suverenliyini, ərazi bütövlüyünü, dövlətçiliyini qorumaq üçün bütün vasitələrdən istifadə edəcəyini qiymətləndirməməsi ABŞ üçün dəhşətli səhv olacaq.

*"Xalq qəzeti"*

*6 Aprel Ümumdünya Fiziki Fəallıq Günüdür*

# Fəal hərəkət uzun ömür qaynağıdır

**Qədim yunan filosofu Aristotelin bir fikri var: "Hərəkətsizlik kimi insan orqanizmini məhv edən ikinci bir vasitə yoxdur". Fiziki hərəkətsizliyin xroniki xəstəliklərin yaranmasının risk amili olduğunu və dünyada hər il milyonlarla insanın ölümünə səbəb olduğunu nəzərə alsaq, ona qarşı mübarizənin nə qədər böyük əhəmiyyət kəsb etdiyi anlaşılar.**

Əlamətdar gün ərəfəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası rektorunun əlavə təhsil üzrə müşaviri, Əməkdar müəllim Firat Hüseynovla görüşüb fiziki tərbiyənin və sağlamlaşdırıcı məşğələlərin orqanizmə təsiri barədə danışdıq. Firat müəllim sağlamlığın möhkəmləndirilməsi və xəstəliklərin profilaktikasında bədən tərbiyəsi və idmanın rolunun misilsiz olduğunu vurğuladı: "İnsan sağlamlığını möhkəmləndirən amillər arasında ən əhəmiyyətli yerlərdən birini fiziki yük tutur. İdman və sağlamlaşdırıcı məşqlərdən sistemli olaraq istifadə edən insanların sağlamlığı həmişə





qaydasında olur. Belə ki, orqanizmin möhkəmlənməsinə müsbət təsir edən müxtəlif istigamətli fiziki yük, əslində, xəstəliklərin qarşısının alınmasında profilaktika rolunu oynayır".

F.Hüseynov sağlamlıq naminə fiziki hərəkətlərdən istifadənin qədim tarixi olduğunu söylədi və əlavə etdi ki, zaman keçdikcə, insanların yaşam tərzi dəyişdikcə, hərəkətlərdən gündəlik zəruri istifadəyə ehtiyac azalıb ki, bu da yaxşı hal deyil. Bu səbəbdən hazırda müasir insanın sağlamlığına təhlükə yaranır. Çağdaş dünyada ən yeni tədqiqatlar göstərir ki, gənclərin yalnız 10 faizində sağlamlıq və fiziki durum normal vəziyyətdədir. İnsanlar az hərəkət etdikcə, tənəffüs, qan dövranı pisləşir, əzələ sistemlərində passivlik müşahidə edilir. Belə neqativ halların qarşısını almağın yeganə yolu davamlı olaraq bədən tərbiyəsi və idmanla məşğul olmaq, orqanizmin müxtəlif funksional sistemlərini möhkəmləndirməkdir.

Ümumtəhsil məktəblərində fiziki tərbiyə üzrə müəllim vəsaitlərinin və 6–10-cu siniflər üçün dərsliklərin müəllifi olan idman mütəxəssisi sonda fiziki hərəkətsizliyin uşaqlar üçün xüsusilə böyük problemlər yaratdığını bildirdi: "Uşaqların böyük əksəriyyətinin məktəbə fərdi nəqliyyat vasitəsi ilə getmələri, gündəlik nəzəri məşğələlərin çoxluğu, bu və ya digər səbəblər minimum hərəki fəallığı belə yerinə yetirməyi mümkünsüz edir. Buna görə də onların orqanizmi zəifləyir, xəstəliklərə müqaviməti kəskin azalır, ürək-damar, tənəffüs, dayaq-hərəkət aparatında yaşa müvafiq olmayan hallar yaranır".

Orqanizmin sağlamlığının təmin olunması üçün təbii bioloji ehtiyac olan fiziki yük ödənilmədikdə çoxsaylı problemlər baş verir. Çünki böyüyən orqanizmin hərəkətə ehtiyacı mühüm amil olmaqla yanaşı, həm də çox zəruridir. Orqanizmin müxtəlif funksional sistemlərinin normal formalaşmasının ən vacib şərti isə hərəkətdir. Məhz belə hərəkətlər sayəsində orqanzimdə hüceyrələrin və toxumaların oksigenlə, qida maddələri ilə təchizi yaxşılaşır. Hərəkətsizlik orqanizmin hərtərəfli formalaşmasına mane olmaqla yanaşı, onun inkişafını ləngidir, eyni zamanda hərəki bacarıq və vərdişlərə yiyələnmə prosesini də xeyli çətinləşdirir.

Buna görə də, hər birimiz sağlamlığımızın, fiziki hazırlığımızın həyat və yaşamaq üçün ən qiymətli dəyər olduğunu nəzərə alıb, idmanla məşğul olmalıyıq.

***L.QURBANOVA,***
***"Xalq qəzeti"***

# Qədim Çin incəsənəti Bakıda

**Həyat qarşılıqlı elm və təcrübə mübadiləsi ilə daha rəngarəng olub. Müxtəlif mədəniyyətlərin bir araya gəldiyi nadir ölkələrdən olan Azərbaycan məhz bu zənginliyi özündə təcəssüm etdirir, multikultural dəyərləri qoruyur. Ölkəmizin nüfuzlu mədəni mərkəzlərindən biri olan Azərbaycan Milli İncəsənət Muzeyində bütün ölkələrin mədəniyyətinə diqqətlə yanaşılır.**

Bu günlərdə muzeydə açılan "Çin İncəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından" sərgisi də bu baxımdan böyük əhəmiyyət kəsb edir. Sərgidə nümayiş etdirilən qiymətli mədəni yadigarlar qədim xalqın sivilizasiyasının bütün dövrlərinə aiddir. Beş zalda nümayiş etdirilən sərgi ilə tanış olarkən bənzərsiz Çin mədəniyyətinə, incəsənətinə sanki səyahət edirsən.

Mədəniyyət Nazirliyi, Çinin Azərbaycandakı səfirliyi və Milli İncəsənət Muzeyi tərəfindən ərsəyə gələn sərginin kuratoru və ideya müəllifi muzeyin direktoru Çingiz Fərzəliyevdir.

Öyrəndik ki, muzey 2016-cı ildən başlanılan multikultural ənənəyə sadiq qalaraq Fransa, Yaponiya, Almaniya kimi ölkələrin diplomatik nümayəndə-





likləri ilə birlikdə bu xalqlarının mədəniyyətini özündə əks etdirən sərgilər təşkil edib.

**Muzeyin Elmi-kütləvi işlər şöbəsinin müdiri Rəfiqə Quliyeva dedi:** "Çin sərgisində, əsasən, XVII–XX əsrlərə aid 300-ə yaxın bədii sənət nümunəsi nümayiş etdirilir. Onların hər biri özünəməxsus gözəlliyi və təbiilik fəlsəfəsi, dekorativ-tətbiqi sənətin bədii üsullarının incə zənginliyi ilə diqqəti cəlb edir. Beş min ildən artıq tarixə malik, qədim dövrlərdən açıq və inklüziv olması ilə tanınan Çinə aid eksponatlar buraya gələnlərin böyük marağına səbəb olub. Sərgini ziyarət edənlər arasında orta məktəb şagirdlərindən, tələbələrdən tutmuş, yaşlı nəslin nümayəndələrinə qədər hamı Çin farfor nümunələrinə, pannolara, ipək üzərində tikmələrə, böyük sənətkarlıqla hazırlanmış metalişləmə və ağacişləmə sənət nümunələrinə xüsusi diqqət göstərir. Sərgi 3 aya qədər davam edəcək".

Sərgidə nümayiş olunan eksponatlar işlənmə texnikasının nəfisliyi, parlaq və füsunkar rəsmləri ilə göz oxşayır. İstehsal tarixinin neolit dövrünə təsadüf etdiyi Çin farfor nümunələri xüsusi peşəkarlıqla hazırlanıb. Bu qədim ölkənin dekorativ tətbiqi sənətində mifoloji, quş, nəbati, at və digər ornamentlərin təsvirinə tez-tez rast gəlmək olar. Onlardan Əjdaha totemi çini, metalişləmə və digər sənət nümunələrinin üzərində təsvir edilir. Sərgidə də belə nümunələr kifayət qədər var. Eyni zamanda, XVII əsrə aid dekorativ vaza, boşqab, çaydan, güldan və bir sıra dekorativ fiqurların yer aldığı sərgi Çin incəsənətinin bənzərsizliyini bir daha sübut edir.

Sərgi təkcə Çin mədəniyyəti və incəsənətinə maraq göstərənlər üçün deyil, eyni zamanda bu qədim ölkənin mədəni irsi və tarixi haqqında geniş məlumat almaq istəyən hər kəs üçün böyük maraq kəsb edir. O, həm də Azərbaycan və Çin kimi müxtəlif mədəniyyətlərə malik iki ölkə arasında tarixi bağların daha da möhkəmlənməsi baxımından əhəmiyyətlidir. Əminik ki, sərgi geniş kütlələrin Çin mədəniyyəti ilə daha yaxından tanış olması üçün böyük imkanlar yaratmaqla yanaşı, iki ölkə arasında dostluğun gücləndirilməsinə də layiqli töhfəsini verəcək.

***Leyla AZAD,***
***"Xalq qəzeti"***

# İnformasiya təhlükəsizliyi sahəsində tələbə hazırlığına diqqət artır

**Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) informasiya təhlükəsizliyi sahəsində təhsil alan tələbələrin nəzəri, elmi-praktiki biliklərinin artırılması məqsədilə tədbirləri davam etdirir.**

XRİTDX-nin mətbuat xidmətindən bildiriblər ki, bu istiqamətdə görülən tədbirlər çərçivəsində aprelin 5-də Xidmətin əməkdaşı Nadir Novruzov Dövlət Gömrük Komitəsinin Akademiyasının İnformasiya təhlükəsizliyi fakültəsinin birinci, ikinci və üçüncü kurslarında təhsil alan tələbələr üçün "Azərbaycan kibertəhlükəsizlik qanunvericiliyi və kibercinayətkarlıq" mövzusunda məruzə ilə çıxış edib.

N.Novruzov XRİTDX-nin kibertəhlükəsizlik sahəsində gündəlik fəaliyyəti barədə məlumat verib, tələbələrin suallarını cavablandırıb.

# Sosial xəbərlər

## DOST bölgələrdə savadlanma aparır



Bundan sonra DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) tərəfindən əhalinin sosial sahə üzrə elektron xidmətlər, onlardan istifadə prosedurlarına dair maarifləndirmə – savadlılığın artırılması istiqamətində yalnız paytaxtda deyil, bölgələrdə də təşviqat kampaniyasına başlanacaq.

Kampaniya Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planının müvafiq bəndinə əsasən, regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının artırılması məqsədini daşıyır.

DOST RİM-in mütəxəssisləri ardıcıl olaraq bölgələrdə sakinlərlə görüşlər keçirəcəklər. Onlar sosial sahə üzrə elektron xidmətlər, rəqəmsal bacarıqlar barədə maarifləndirici söhbətlər aparacaq, iştirakçılara praktik məlumatlar verəcək, onların suallarını cavablandıracaqlar. Dövlət Sosial Müdafiə Fondunun regional filiallarında keçiriləcək bu görüşlərin hər biri ilə bağlı onların yeri və vaxtı barədə əvvəlcədən məlumat veriləcək.

Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə əhaliyə göstərilən 153 xidmətin son beş ildə icra olunan geniş elektronlaşdırma proqramı nəticəsində 90 faizdən çoxu rəqəmsal platforma üzərindən təqdim edilir. Bu da xidmətlərin müasir, şəffaf və operativ şəkildə göstərilməsini və əlçatanlığının artmasını təmin edib.

## "Məşğulluğa dəstək" layihəsi Sumqayıtda



Dünya Bankının maliyyə dəstəyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan "Məşğulluğa dəstək" layihəsi çərçivəsində növbəti ictimai dinləmə aprelin 7-də Sumqayıt şəhərində keçiriləcək.

Dövlət Məşğulluq Agentliyinin Sumqayıt şəhərindəki Abşeron–Xızı regional məşğulluq filialının inzibati binasında keçiriləcək tədbirdə iştirakçılara layihənin hədəfləri, əhatə dairəsi, icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər barədə məlumat veriləcək. Həmçinin "Məşğulluğa dəstək layihəsi"ndə iştirak qaydalarına dair məlumatlandırma aparılacaq.

## Sirk truppası yaradıcılıq mərkəzində

Bakı Dövlət Sirkinin milli truppası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin qonağı olub. Tədbir mərkəzin ənənəvi olaraq hər həftə həyata keçirdiyi "Kino həftəsi" layihəsi çərçivəsində baş tutub.



Qonaqlar səfər çərçivəsində sirk nömrələrini benefisiarlarımız üçün nümayiş etdiriblər. Çarli Çaplin, kloun, jonqlyor, pəhləvan və illüzionist çıxışları benefisiarların marağına səbəb olub. Tədbirə əlilliyi olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum 40-a yaxın uşaq və yeniyetmə cəlb edilib.

Qeyd edək ki, inklüziv məkanda 168 benefisiar 14 fəaliyyət növü üzrə təlimlərə cəlb olunub. Burada həssas qruplara aid şəxslərin bacarıq və yaradıcılıq potensiallarının inkişaf etdirilməsi ilə yanaşı, fərdi inkişaf planları əsasında onlarla bağlı kompleks reabilitasiya işləri də aparılır

## Ölkəmiz MDB-də pensiya artımı üzrə liderdir



Sosial islahatlar nəticəsində ölkəmizdə pensiyaların dinamikasının nəticəsi olaraq, orta aylıq pensiyanın beynəlxalq dollar ifadəsində artım məbləğlərinin MDB ölkələri, Gürcüstan və Ukrayna üzrə müqayisəli sıralamasında Azərbaycan ikinci yerdən birinci yerə yüksəlib.

Eyni zamanda, ölkəmiz minimum və orta aylıq pensiya göstəricilərinin Alıcılıq Qabiliyyəti Pariteti əsasında hesablanmış dollar ifadəsində həmin sıralamada ilk yeri tutmaqda davam edir.

Bundan başqa, minimum aylıq əməkhaqqının da dollar ifadəsində məbləği və Alıcılıq Qabiliyyəti Pariteti üzrə müqayisəsində qeyd olunan sıralamada ölkəmiz 4-cü yerdən 3-cü yerə yüksəlib.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələrə tələb olunan polipropilen mallarının satın alınması məqsədilə*

Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il aprelin 11-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1176.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Bakı Yoltikintiservis" ASC səhmdarlarının nəzərinə!

"Bakı Yoltikintiservis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 22 may 2023-cü il saat 11.00-da Bakı şəhəri, Sabunçu rayonu, Binəqədi–Balaxanı şossesi 11 nömrəli ünvanda keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Cəmiyyətin 2022-ci ilin yekunlarına aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.

**2.** Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada təsdiqi.

**3.** Cəmiyyətin idarəetmə orqanlarının və təftiş komissiyasının formalaşdırılması.

**4.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu: (070) 645 56 01.

"MƏRDƏKAN BROYLER" ASC səhmdarlarının nəzərinə!

"MƏRDƏKAN BROYLER" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 11 may 2023-cü il saat 11.00-da Bakı şəhəri, Ağa Nemətulla küçəsi 48 nömrəli ünvanda – "MONTINN" hotelində keçiriləcəkdir.

Ümumi yığıncaqda aşağıdakı məsələ müzakirə ediləcəkdir:

1. Cəmiyyətin seçkili orqanlarının yenidən formalaşdırılması.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə əlaqədar sənədlərlə hər həftənin iş günləri, saat 13.00-dək +994503252717 nömrəli telefonla əlaqə saxlayıb tanış ola bilərlər.

SOSİAL ŞƏBƏKƏLƏRDƏN SEÇMƏLƏR

**Sumqayıtda eyni həyətdə böyüdüyümüz Rauf Muradov illərdir ki, Böyük Britaniyanın Souzhampton şəhərində yaşayır. Bakıda Texniki Universiteti (keçmiş Politexnik institutu) bitirib, Moskvada aspiranturada oxuyub. Bacarıqlı mühəndis olmaqla bərabər, "Qaraişıq" imzası ilə gözəl şeirlər yazır, bir neçə kitabın müəllifidir. İldə bir dəfə Vətənə gələn Raufla sevincək görüşür, xatirələrə dalırıq. O, həm də fəal sosial şəbəkə istifadəçisidir. Deməli olar ki, hər gün diqqətçəkən statuslar yazır.**

# Uşaqların sualları



Bu günlərdə Rauf riqalı yazıçı Mixail Dımova məxsus olan bir paylaşım edib. Altı-on yaşlı məktəblilərə tapşırılır ki, Allaha suallar verib, ondan nəsə xahiş etsinlər. Şagirdlərin həmin yazılarından bəzilərini sizə təqdim edirik:

"Uşaqlıq bütün ömür üçün bəs edə bilərmi?"

"İnsanlar Yer üzündə böyük əzab çəkirlər. Doğrudanmı, cəhənnəm daha pisdir?"

"Bəlkə sənə nə iləsə kömək edə bilərəm?"

"Gülləri insanlardan daha yaxşı yaratmısan".

"Mən necə yaşayım ki, dünyada hamı xoşbəxt olsun?"

"Nədən yoxsullar kilsənin yanında dilənirlər? Kimin onlara pul verdiyini sən görəsən deyə?"

"İnsanlar səni sevirlər, yoxsa qorxurlar?"

"Məsih insanlara görə çarmıxa çəkilib. Bəs, insanlar nəyə görə zülm çəkirlər?"

"Elə et ki, mən ikinci həyatımda Fransada, özü də indiki kimi qız yox, oğlan doğulum".

"İlahi, sən mənə öz canımı vermisən, ya başqasınınkını?"

"Günlər qocalaraq ölür?"

"Həyat nəyə lazımdır? Lazımdırsa, insanlar niyə ölürlər?"

"Biz sənin oyuncaqlarınıq? "

"Niyə sevəndə hər şey xoşa gəlir. Hətta qayğanaq da?"

"Mən olmayandan sonra özümü görəcəyəmmi?"

"Deyirlər ki, insanlar hansı şəkildəsə dünyaya qayıdırlar. Lütfən, elə et ki, mən öz itim kimi qayıdım, o isə mənim kimi və biz yenə birlikdə olaq".

"Tanrım, elə et ki, göydə nənəmlə babamım üzləri işıqlansın və onlar mənə baxıb gülümsəsinlər".

"Gəl, şərtləşək: Mən sənə inanım, sən də mənə".

"Əlcəyimi tapsan, xahiş edirəm, qaytarasan".

"Atam dənizçidir, qoy, dalğalar ona qarşı mehriban olsun".

"Düşmənlərimə öyrət ki, düşmənlərini bağışlasınlar".

"Dünən məktəbdə elan etdilər ki, sən varsan. Salam!"

"Uşaqların öz Allahı olmalıdır: balaca Allahcığaz".

"Olarmı, mən ölməyim?"

"Qocalar yorulmuş uşaqlardır?"

***Hazırladı:***
***Ə.NƏCƏFXANLI, "Xalq qəzeti"***

# Türk dünyasını birləşdirən mədəniyyət körpüsü

**Ulu öndər Heydər Əliyev Azərbaycanın Prezidenti olduğu dövrlərdə Türkiyə ilə qardaşlıq bağlarını möhkəmləndirmiş, Mərkəzi Asiyadakı türk respublikaları ilə sıx əməkdaşlıq etmişdir.**



"Heydər Əliyev İli" ilə əlaqədar Beynəlxalq Muğam Mərkəzində Milli Məclisin Mədəniyyət komitəsinin təşkilatçılığı ilə Türkiyə və Mərkəzi Asiyanın türk ölkələrindən olan qonaqların iştirakı ilə tədbir keçirilmişdir.

Qazaxıstan, Qırğızıstan, Çuvaşıstan və digər ölkələrdən dəvət olunmuş mədəniyyət və incəsənət xadimlərinin çıxışlarında ümummilli lider Heydər Əliyevin türk dünyasına nümunə olan bir lider olduğu dönə-dönə vurğulandı.

Türkmənistanın ictimai xadimi Murad Toylu Heydər Əliyevin uzaqgörən bir siyasətçi olduğundan bəhs etdi, türk dünyasının onun arzularını gerçəkləşdirdiyini iftixarla qeyd etdi.

"Bu gün Türk Dövlətləri Təşkilatı artıq dünyanın ən mötəbər ictimai qurumlarından birinə çevrilib. Həm II Qarabağ savaşında, həm də Türkiyədə yaşanan son zəlzələ zamanı türk birliyinin bir daha şahidi olduq. Ölkələrimiz indiyə qədər heç kimin görə bilmədiyi birlik nümayiş etdirib, səfərbər oldular. Bu bərabərliyi bütün dünya gördü".

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu çıxışında ulu öndər Heydər Əliyevi türk dünyasının birliyi ideyasının müəllifi kimi xarakterizə etdi.

"80-ci illərdə Moskvada təhsil aldığım illərdə Heydər Əliyev orada böyük vəzifədə idi. Bu böyük şəxsiyyətin həm sovetlər ittifaqının siyasətinin, həm də türkdilli dövlətlərin rəhbərləri ilə olan münasibətinin şahidi olmuşam. Türk dünyasının rəhbərlərinin Moskva şəhərində ilk görüşləri demək olar ki, Heydər Əliyevlə olurdu. Bu dahi şəxsiyyətin bütün tədbirlərdə səsləndirdiyi fikirlərin əsasını əlaqələrin genişləndirilməsi təşkil edirdi".

Sonra "Unity Company" ərazi partiya təşkilatının sədri Fikrət Əliyev, "Nəfəs" İnsanlığa Dəstək İctimai Birliyinin sədri Firəngiz Balakişiyeva, Qazaxıstan Respublikasının tanınmış qələm ustası Tanagöz İlyasova, Çuvaşıstan Respublikasının incəsənət xadimi Marina Kalyagina, digər dövlət və ictimai xadimlər çıxış etdilər, şeirlər səsləndirildi. Tədbir konsert proqramı ilə davam etdi.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

# "TikTok" 12,7 milyon funt sterlinq cərimələndi

**Dünyada milyonlarla istifadəçisi olan "TikTok" qadağalar və cərimə xəbərləri ilə gündəmdən düşmür. Bir müddət əvvəl Avstraliya hökuməti tərəfindən qadağan edilən platforma indi Böyük Britaniyada baha məbləğdə cərimələnib. Belə ki, məlumatların qorunması qanununu pozduğuna görə platforma 12,7 milyon funt sterlinq ödəməli olacaq. Xəbəri "cnn.com" saytı verib.**




Böyük Britaniya İnformasiya Komissarlığı Ofisi (ICO) tərəfindən aparılan araşdırmada "TikTok" 13 yaşından kiçik uşaqların şəxsi məlumatlarından valideyn icazəsi olmadan istifadə etməkdə və bu yaş qrupunun proqramdan istifadə edə bilməməsi üçün lazımi tədbir görməməkdə ittiham olunur. Bununla yanaşı, komissarlıq "TikTok"un 2018-ci ilin may və 2020-ci ilin iyul aylarını əhatə edən dövr ərzində britaniyalı istifadəçilərə məxsus şəxsi məlumatlardan hüquqi, ədalətli və şəffaf şəkildə istifadə edilməməsi səbəbi ilə də qanunları pozduğunu irəli sürüb.

"TikTok" komissiyanın qərarı ilə razılaşmır. Şirkət platformanın 13 yaşdan kiçiklərə sayta girişi dayandırmaq üçün böyük sərmayə qoyduğunu bildirib. "TikTok"a şikayət etmək üçün 28 gün vaxt verilib. Qeyd edək ki, 12,7 milyon funt sterlinq cərimə ICO-nun tətbiq etdiyi ən böyük cərimələrdən biridir.

***Əfsanə ƏHƏDLİ,***
***"Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ ***Aprelin 6-da***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə zəif duman olacağı, çiskinli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 6-9°, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 18-23° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 2-7°, gündüz 8-13° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 1-6°, gündüz 7-12° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 18-22° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 15-20°, dağlarda gecə 1-4°, gündüz 4-7° isti olacaq.

✓ **Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 6-10°, gündüz 18-23° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 8-12°, gündüz 18-22°, dağlarda gecə 7-9°, gündüz 13-17° isti olacaq.

# Bir evimiz də Torontoda açıldı

**Kanadanın Ontario vilayətinin Toronto şəhərində Azərbaycan Evinin rəsmi açılış mərasimi keçirilib.**




Tədbirə moderatorluq edən Kanadanın keçmiş multikulturalizm naziri və sabiq parlament üzvü Toni Ruprext Azərbaycan Evinin milli mədəniyyətin qorunub saxlanılması, gənc nəslə ötürülməsi baxımından önəmini vurğulayıb.

Sonra Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Kanadada Azərbaycan Evinin açılması münasibətilə soydaşlarımızı təbrik edib, bu hadisəni dövlətimizin xaricdə yaşayan soydaşlarımıza diqqətinin və qayğısının təzahürü kimi qiymətləndirib. Komitə sədri həmçinin 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin təbliği məqsədilə Ontario əyalətində geniş məlumatlandırma kampaniyası apardıqlarına və irimiqyaslı aksiyalar təşkil etdiklərinə görə icma üzvlərinə minnətdarlığını bildirib.

İDMAN XƏBƏRLƏRİ

### ŞAHMATÇILARIMIZ AQZAMOV MEMORİALINDA

***Özbəkistanın paytaxtı Daşkənddə şahmat üzrə Aqzamov memorialı start götürüb. Bu barədə Azərbaycan Şahmat Federasiyasının mətbuat xidmətindən qəzetimizə bildirilib ki, turnirdə ölkəmizin iki şahmatçısı – Misrətdin İsgəndərov və Vüqar Rəsulov mübarizə aparırlar.***




Aprelin 12-dək davam edəcək yarışda 63 şahmatçı birincilik uğrunda yarışacaq. Turnirin reytinq favoriti yerli idmançı Şamsiddin Vohidovdur.

Qeyd edək ki, ümumilikdə, memorialda 11 ölkədən şahmatçılar iştirak edirlər.

### GÜNAY MƏMMƏDZADƏ DÜNYA YIĞMASINA DƏVƏT OLUNUB

***Aprelin 17-dən 19-dək Qazaxıstanın paytaxtı Astanada şahmatın blitz növü üzrə Qazaxıstan komandası ilə dünya yığması arasında yoldaşlıq görüşü keçiriləcək.***



Görüş aprelin 7-dən mayın 1-dək Astanada keçiriləcək Dinq Lirenlə Yan Nepomnyaşiy arasında şahmat tacı uğrunda oyuna həsr olunacaq.

FIDE tərəfindən dünya yığmasına Azərbaycan millisinin üzvü, Avropa çempionatının gümüş mükafatçısı Günay Məmmədzadə də dəvət olunub. Həmyerlimizlə yanaşı dünya komandasında Hou Yufan, Nana Dzaqnidze və digər tanınmış şahmatçılar çıxış edəcək.

### BOKSÇULARIMIZ BOLQARISTANDA HAZIRLAŞIRLAR

***Kişi boksçulardan ibarət Azərbaycan milli komandası Bolqarıstana yollanıb. Baş məşqçi Pedro Roke, məşqçilər Nəriman Abdullayev və Etibar Abdullayevin rəhbərliyi altında yığmanın 15 idmançısı Sofiyada təlim-məşq toplanışına qatılacaq.***



Azərbaycan Boks Federasiyasından qəzetimizə verilən məlumata görə, hazırlıqda Tural Sarıyev (48 kq), Məsud Yusifzadə, Nicat Hüseynov (hər ikisi 51 kq), Ümid Rüstəmov (57 kq), Tayfur Əliyev (60 kq), Malik Həsənov (63,5 kq), Nəbi İsgəndərov (67 kq), Rəşid Həsənov, Sərxan Əliyev (hər ikisi 71 kq), Mirşərif Kazımzadə, Kamran Şahsuvarlı (hər ikisi 75 kq), Murad Allahverdiyev (80 kq), Eldar Quliyev (86 kq), Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) iştirak edəcəklər.

Yığmamız Bolqarıstanda toplanışı ev sahibləri, Moldova, Fransa, İordaniya və Rumıniya milliləri ilə birgə keçəcək. Məşqlərdə sınaq döyüşlərinin keçirilməsi də nəzərdə tutulub.

Təlim-məşq toplanışı aprelin 23-dək davam edəcək.

Qeyd edək ki, məşqlər dünya çempionatına hazırlıq məqsədi daşıyır. Yarışlar mayın 1-14-də Özbəkistanın paytaxtı Daşkənddə olacaq.

***Elçin AĞAMİRZƏ,***
***"Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

"Azərsu" ASC-nin kollektivi səhmdar cəmiyyətin hüquqi mübahisələrlə iş üzrə şöbəsinin aparıcı hüquq məsləhətçisi Azad Nuhova atası

BƏHRAM NUHOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin əməkdaşı

VİLAYƏT HACIYEVİN

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 818
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00